# AZƏRBAYCAN DİLİ

# 1

TƏDRİS DİLİ

**DƏRSLİK**




1-ci hissə





# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

**Musiqisi** ***Üzeyir Hacıbəylinin,***
**sözləri** ***Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

Ülkər Nurullayeva
Nuriyə Allahverdiyeva
İradə Bayramova
Aysel Xanalıyeva

# AZƏRBAYCAN DİLİ 1

TƏDRİS DİLİ

Ümumi təhsil müəssisələrinin
1-ci sinifləri üçün

## DƏRSLİK

©Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi **trm@arti.edu.az** və **derslik@edu.gov.az** elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!



**1-ci hissə**

# Mündəricat

## 1 AİLƏ VƏ MƏKTƏB


| Fəsillər | səhifə |
|---|---|
| 1 • MƏNİM AİLƏM | 8 |
| 2 • MƏKTƏB BAZARLIĞI | 11 |
| 3 • BABANIN HƏDİYYƏSİ | 16 |
| 4 • RAMİN VƏ DOSTLARI | 20 |
| Ümumiləşdirici təkrar | 24 |




## 2 TƏHLÜKƏDƏN QORUNAQ


| Fəsillər | səhifə |
|---|---|
| 1 • DİQQƏT! TƏHLÜKƏ! | 26 |
| 2 • YANĞIN | 30 |
| 3 • YOLDA TƏHLÜKƏ | 34 |
| 4 • EVDƏ TƏHLÜKƏ | 38 |
| 5 • XİLASEDİCİLƏR | 42 |
| Ümumiləşdirici təkrar | 46 |




## 3 SAĞLAM HƏYAT




| Fəsillər | səhifə |
|---|---|
| 1 • GÜN REJİMİ | 48 |
| 2 • İDMAN | 53 |
| 3 • GİGİYENA QAYDALARI | 58 |
| 4 • SAĞLAM QİDA | 62 |
| Ümumiləşdirici təkrar | 68 |


## 4 TƏBİƏTİN SİRLƏRİ


| Fəsillər | səhifə |
|---|---|
| 1 • GÖYQURŞAĞI | 70 |
| 2 • İLBİZ | 75 |
| 3 • GÖBƏLƏK | 80 |
| 4 • BOZQULAQ | 87 |
| Ümumiləşdirici təkrar | 96 |




# Kitabınla tanış ol

**SÖZ BOĞÇASI**
Mövzu ilə bağlı yeni sözlər

**SÖZLƏRİN YAZILIŞI**
Sözlərin düzgün yazılışı


3 A Şəkillərə baxın. Suallara cavab verin.

*İdman zalında* — *Rəsm dərnəyində*

• Söz boğçası •
- dərnək
- məşqçi
- halqa
- lent
- molbert
- dolça

• Sözlərin yazılışı •

| Doğru | Yanlış |
|---|---|
| rəsm | rəsim |
| məşq | məşk |

- Şəkillərdə **kimləri** görürsünüz?
- Ayanın əlində **nə** var? O **harada** məşq edir?
- Əliyə şəkil çəkməyi **kim** öyrədir? O **nə** şəkli çəkir?

• Hüsnxət •

Cc

Sözləri köçürün.

cücə
bacı
tac
Cəmilə

• Bunları bilməliyik •

Ad bildirən sözlər

| Kim? | Nə? | Hara? |
|---|---|---|
| məşqçi | saat | meşə |
| Ayan | oyun | Şuşa |

B Göy rəngli sözləri uyğun olaraq "kim", "nə", "hara" sözləri ilə əvəz edin.
- Ayanın əlində lent var.
- Ayana məşqçi kömək edir.
- Küçə genişdir.

C Sözləri köçürün. Qarşısında suallarını yazın.

Nümunə: kitab – nə?

oğlan, park, corab, ev, Tural, gül, Bakı

50

**HÜSNXƏT**
Hərflərin və sözlərin hüsnxət normalarına uyğun yazılışı

**BUNLARI BİLMƏLİYİK**
Dil qaydaları və nitq bacarıqları ilə bağlı ümumi anlayışlar

# 1 AİLƏ VƏ MƏKTƏB

**1 A** Suallara cavab verməklə şəkillər üzrə danışın.

- Sizcə, baba ilə nənə Ramini nə üçün təbrik edirlər?
- Öz ailə üzvləriniz haqqında danışın.

- Raminlə anası çantaya hansı əşyaları yığırlar?



- Ramin və atası nə edirlər?





# MƏNİM AİLƏM

**• Bunları bilməliyik •**

səs, hərf, söz

Hərflər

R A M İ N

SÖZ

| Böyük hərf | Kiçik hərf |
|---|---|
| A | a |
| R | r |
| Z | z |
| N | n |
| B | b |

## 2 A Hərfləri xatırlayaq.




## B Aşağıda kimlərin şəkli verilmişdir? Onların adlarını ilk hərfləri ilə uyğunlaşdırın.

1 

2 

3 

4 

**a b n R**

## C Sözləri oxuyun.

| | | | | |
|---|---|---|---|---|
| an | banan | bar | ara | nar |
| ana | bazar | anbar | araba | Anar |

## 3 A Şəkildəki varlıqların adlarını deyin. Seçilmiş hərfləri səsləndirin.

E

EV

Ə

ƏRİK

S

SOĞAN

Ş

ŞİR

F

FƏNƏR

İ

İNƏK

I

ARI

| Böyük hərf | Kiçik hərf |
|---|---|
| E | e |
| Ə | ə |
| S | s |
| Ş | ş |
| F | f |
| İ | i |
| I | ı |

## B Sözlərdə çatışmayan hərfi tapın.


_ L A N


_ İ Ç A N


A Y _


_ Y N Ə K


_ İ L


_ L C Ə K

**• Hüsnxət •**

Aa hərfinin digər hərflərlə birləşməsinə **baxın.**

A a

ana

nar

Anar

## C Sözləri oxuyun.

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| nanə | bibi | sel | sərin | şirə | bəbir | fəsil |
| nənə | bir | səs | şirin | sarı | səbir | asan |

| Böyük hərf | Kiçik hərf |
|---|---|
| L | l |
| O | o |
| Ö | ö |
| T | t |
| C | c |
| H | h |

**4 A** **Şəkildəki varlıqların adlarını deyin. Seçilmiş hərfləri səsləndirin.**

L 
LİMON

O 
ODUN

Ö 
ÖRDƏK

T 
TURP

C 
CÜCƏ

H 
HƏKİM

**• Hüsnxət •**

**Nn hərfinin digər hərflərlə birləşməsinə baxın.**

*Nn*

*nağıl*

*köynək*

*Nigar*

**B** **Şəkillərin altında verilmiş sözləri oxuyun. Onları ilk hərflərinə görə uyğunlaşdırın.**


Cəlal


Lalə


Tahir


telefon


corab


lent

**C** **Sözləri oxuyun.**

| | | | | | |
|---|---|---|---|---|---|
| tor | tar | tac | hələ | hər | səhnə |
| torba | Səttar | Eltac | tələ | səhər | Həsən |

# MƏKTƏB BAZARLIĞI

**1 A** **Şəkildə gördükləriniz barədə danışın.**

• Bəs siz məktəb bazarlığına kiminlə getmişdiniz?



• *Çantanızı seçərkən nəyə diqqət etdiniz?*
• *Alış-veriş üçün valideynlərinizə necə təşəkkür etdiniz?*

**B** **Ramin marketdən nə alıb? Seçilmiş hərfləri səsləndirin.**



| Böyük hərf | Kiçik hərf |
|---|---|
| Q | q |
| K | k |
| Ç | ç |
| D | d |
| P | p |
| X | x |
| M | m |

**• Bunları bilməliyik •**

**“K” hərfi**

“K” hərfi iki səsi bildirir:

| | |
|---|---|
| kitab | karandaş |
| kök | konfet |
| kələm | kukla |

**• Hüsnxət •**

**Əə hərfinin digər hərflərlə birləşməsinə baxın.**





**C** **Sözləri oxuyun. Şəkillərlə uyğunlaşdırın.**

xətkeş çanta qələm pozan
dəftər marker kitab



1 2 3 4 5 6 7

**2 A** **Şəkildəki varlıqların adlarını oxuyun. Bu sözlərdə ilk hərf fərqlidir, yoxsa ilk səs?**



kitab karandaş

**B** **Hansı sözdə “k” fərqli səslənir?**



kələm kirpi konfet kök

**C** **Sözləri oxuyun.**

| | | | |
|---|---|---|---|
| əkin | kətə | kart | aptek |
| kino | kəmər | karton | kassa |
| keçi | kənd | karate | kral |
| kökə | kəndir | keks | kanal |

**Ç** **Aşağıdakı məktəb əşyaları hansı məqsədlə istifadə olunur?**



## 3 A Şəkildəki varlıqların adlarını deyin. Seçilmiş hərfləri səsləndirin.

U

ULDUZ

Ü

ÜTÜ

V

VEDRƏ

Y

YUMURTA

J

JİLET

G

GÜNƏŞ

Ğ

QOĞAL

| Böyük hərf | Kiçik hərf |
|---|---|
| U | u |
| Ü | ü |
| V | v |
| Y | y |
| J | j |
| G | g |
| Ğ | ğ |

**B** Verilmiş hərflərlə başlayan sözlər deyin. Hansı hərflərlə başlayan sözlər tapa bilmədiniz?

a ğ n ş ə ı

**C** Şəkildəki varlıqların adlarını tələffüz edin. İlk səsə uyğun hərfi göstərin.


g ğ


u ü


v y

**Ç** Sözləri oxuyun.

| | | | | |
|---|---|---|---|---|
| dağ | gavalı | Jalə | ütü | yuva |
| yağ | günəş | jilet | tülkü | qurbağa |
| bağ | Aygün | qaraj | zürafə | qarğıdalı |

**• Hüsnxət •**

L l hərfinin digər hərflərlə birləşməsinə **baxın.**

*L l*

*limon*

*alça*

*Ləman*

## 4 A Şəkillərə baxın. Hərflərdən sözlər düzəldin.




**B** Şəkildəki varlıqların adlarında fərqli hərfləri tapın.


şar


nar


tar


qar

**C** Şəkillərə baxın. Sözlərdə çatışmayan hərfləri tapın.


a...ı


ro...ot


arm...d


da...aq


a...ı

**• Hüsnxət •**

**Mm** hərfinin digər hərflərlə birləşməsinə **baxın.**

*Mm*

*maşın*

*rəssam*

*Mələk*

**Ç** Rəng adlarını oxuyun, uyğun karandaşları tapın.

- göy
- yaşıl
- sarı
- qara
- qırmızı
- narıncı
- bənövşəyi


1 2 3 4 5 6 7

**D** Rəqəm adlarını oxuyun. Uyğunluğu müəyyən edin.

beş

on

altı

üç

iki

bir

dörd

yeddi

doqquz

səkkiz





















# BABANIN HƏDİYYƏSİ

**1 A Suallara cavab verin.**

- *Hədiyyəni nə vaxt verirlər?*
- *Hansı hədiyyəni alanda daha çox sevinirsiniz?*
- *Hədiyyə vermək xoşunuza gəlir, yoxsa hədiyyə almaq?*

**B Hədiyyə qutularının üzərindəki sözləri oxuyun. Uyğun gələn oyuncağı tapın.**







**• Söz boğçası •**

- təşəkkür
- təbrik
- hədiyyə
- pazl

**• Hüsnxət •**

**I ı hərfinin digər hərflərlə birləşməsinə baxın.**




**C Şəkil üzrə danışın.**




- *Baba Raminə nə hədiyyə etdi?*
- *Baba ona nə tapşırdı?*
- *Ramin hansı hərflərdən söz düzəltməlidir?*

| D | Y | S | T | Ə | B | A | X | M | K | Ə | L |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|

## 2 A Şəkillər üzrə mətn qurub danışın.









- *Ramin binanın üzərində hansı sözü oxudu?*
- *Ramin bu sözü görəndə nə üçün sevindi?*
- *Hansı hadisələr Raminin yuxusunda baş verir?*

**• Hüsnxət •**

**İ i hərfinin digər hərflərlə birləşməsinə baxın.**



• Bunları bilməliyik •

sait, samit

saitlər

k i t a b

samitlər

saitlər

Aa Ee Əə Iı İi Oo Öö Uu Üü

**B** Baba Raminə hansı hərfdən iki dənə vermişdi? Bu səsin deyilişi o birilərdən nə ilə fərqlənir?

T Ə B M K

**C** Sözləri oxuyun. Saitləri ayrılıqda tələffüz edin.

| | | | |
|---|---|---|---|
| ayı | xətkeş | corab | ördək |
| yeddi | ütü | ilan | quzu |

**Ç** Aşağıdakı sözlərə uyğun sait səslər artırın.


m...ş...n


d...ft...r


z...r...f...


ç...nt...


y...m...rt...

**D** Şəkildəki hansı varlığın adı samitlə başlayır?






**E** Aşağıdakı sözləri oxuyun.

cücə, səbət, maral, kökə, quzu,
baba, lalə, tülkü, bibi

Hansı sözlərdə...

- *... samitlər təkrarlanır?*
- *... saitlər təkrarlanır?*
- *... həm saitlər, həm də samitlər təkrarlanır?*

**3 A** Şəkildəki varlıqların adlarının ilk hərflərini ardıcıl yazsanız, Raminin babasının adı alınar.



**B** Hansı adlar saitlə başlayıb samitlə bitir?

İradə | Murad | Nigar | Ömər | Leyla | Aytac

**C** Sözləri oxuyun. Uyğunluğu tapın.

| | |
|---|---|
| keçi | *sait, samit* |
| tor | *sait, samit, sait* |
| ay | *samit, sait, samit* |
| arı | *samit, sait, samit, sait* |

**Ç** "T" samitinin əvvəlinə sait səslər artırmaqla sözlər düzəldin.

**D** Cədvəldə gizlənmiş sözləri tapın.

| | | | |
|---|---|---|---|
| X | A | N | A |
| A | T | A | R |
| T | O | R | T |
| O | Y | U | N |

**E** Aşağıdakı hərflərdən sözlər düzəldin və yazın.

A N L Ə M I İ T

• Hüsnxət •

Tt hərfinin digər hərflərlə birləşməsinə baxın.



# RAMİN VƏ DOSTLARI

1 A **Şəkillərə baxın. Suallara cavab verin.**

- *Uşaqlar nə ilə məşğuldurlar?*
- *Hobbiniz varmı?*
- *Nə ilə məşğul olmağı daha çox sevirsiniz?*

**Ramin və Solmaz**



**Ramin və Əli**





**Ramin və Zərifə**



**• Söz boğçası •**

- hobbi
- plastilin
- batut
- skuter

**• Hüsnxət •**

**Bb** hərfinin digər hərflərlə birləşməsinə **baxın.**



**2 A** **Sevdiyiniz oyunlar haqqında danışın.**
**Gizlənqaç oyununun qaydalarını bilirsinizmi?**
**Oyuna necə başlayırlar?**

**• Söz boğçası •**
- gizlənqaç
- qayda
- sanama






**B** **Uyğunluğu tapın. Kim harada gizlənmişdir?**

| | | |
|---|---|---|
| Zərifə | pərdənin | altında |
| Solmaz | masanın | içində |
| Əli | qutunun | arxasında |

**C** **Hansı uşaq oyunun qaydalarını bilmir?**


Ramin


Zərifə


Solmaz


Əli

## Ç Qruplarla iş

**Yoldaşlarınızla bildiyiniz sanamaları deyin və oyuna kimin birinci başlayacağını müəyyən edin.**

**• Bunları bilməliyik •**

**Söz, heca**

SÖZ

R a m i n

HECALAR

**D** **Raminin hansı dostunun adında üç sait var?**

Zərifə  Solmaz  Əli

**E** **Bəs sizin dostunuzun adında neçə sait var?**

**Ə** **Sözləri hecalarla oxuyun.**

| | | |
|---|---|---|
| şah-mat | do-mi-no | hob-bi |
| te-le-vi-zor | plas-ti-lin | üz-gü-çü-lük |

**F** **"Ay" və "El" hecalarına müxtəlif hecalar artırmaqla ikihecalı adlar düzəldin.**

Ay: tən, dan, sel

El: şad, nur, dar

**3 A** **Özünüzü təqdim edəndə hansı məlumatları verirsiniz?**

**B** **Ramin haqqında məlumatları oxuyun. Onun suallarına cavab verin.**

**• Söz boğçası •**
- məlumat
- soyad
- təqdim etmək



| | |
|---|---|
| **Adı:** | Ramin |
| **Soyadı:** | Həsənli |
| **Yaşı:** | 6 |
| **Ailəsi:** | ata, ana, bacı, nənə, baba |
| **Sinfi:** | birinci |
| **Hobbisi:** | pazl yığmaq |
| **Dostları:** | Əli, Zərifə, Solmaz |



?

- *Mənim soyadım nədir?*
- *Mən neçənci sinifdə oxuyuram?*
- *Mənim neçə yaşım var?*
- *Hobbim nədir?*
- *Mənim ailəm neçə nəfərdən ibarətdir?*

**C** **Heca sayı eyni olan sözləri tapın.**

| | | |
|---|---|---|
| a-i-lə | 1 | hob-bi |
| si-nif | 2 | mə-lu-mat |
| dost | 3 | pazl |

**Ç** **Cütlərlə iş**

**Yoldaşınızdan məlumat toplayın. Aşağıdakı suallardan istifadə edin.**

*1. Neçə yaşın var?*
*2. Ailənizdə kimlər var?*
*3. Qardaşının və ya bacının adı nədir?*
*Neçə yaşı var?*
*4. Hobbin nədir?*
*5. Dostunun adı nədir? Neçə yaşı var?*

**• Hüsnxət •**

**Rr hərfinin digər hərflərlə birləşməsinə baxın.**

*Rr*

*rəndə*

*mart*

*Ramin*

# Ümumiləşdirici təkrar

**4 A** **Şeiri oxuyun. Şeirdə hansı məktəb əşyalarının adı çəkilmir?**



Mən məktəbə gedirəm,
İndi altı yaşım var.
Çoxlu qələm, dəftərim,
Rəngli karandaşım var.



**B** **"K" samitinin səslənməsinə görə dörd sözdən biri fərqlidir.**

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| kök | kirpi | xətkeş | aptek |
| kabab | taksi | tülkü | küçə |
| park | körpü | kərpic | şəkil |

**C** **Hansı sözlər hecalara düzgün ayrılıb?**

**alb-alı | ma-şın | gö-yər-çin | ağ-ac | yarp-aq | ar-ı | al-ma**

**Ç** **Neçənci hərflər samit səsləri işarə edir?**

| u | i | e | a | v | t | ü | ə | r | ö |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |

**D** **Sözləri oxuyun. Ailə ilə bağlı olan sözləri seçib dəftərinizə yazın.**

| | | | | |
|---|---|---|---|---|
| ata | hobbi | nənə | batut | hədiyyə |
| baba | dost | kitab | ana | təşəkkür |
| təbrik | bibi | salam | əmi | musiqi |

# 2 TƏHLÜKƏDƏN QORUNAQ



**1 A Sualları cavablandırın və şəkil üzrə danışın.**

- Ətrafda hansı təhlükələr var?
- Məktəbdə hansı qaydalara əməl etmək lazımdır?
- Hansı yol hərəkəti qaydalarını bilirsiniz?
- İnsanlar qaydaları nə üçün düşünürlər?

# DİQQƏT! TƏHLÜKƏ!

**2 A** **Kitabların cildlərinə baxın. Sizcə, bu kitablarda nə haqda məlumat verilir?**










**• Söz boğçası •**

- cild
- fəsil
- xilasedici
- müəllif

**B** **"Təhlükə nədir" kitabının müəllifi kimdir?**

**• Hüsnxət •**

Dd

*Dd*

**Sözləri köçürün.**

*dərman*

*dad*

*adam*

*Dilarə*

**C** **"Təhlükə nədir" kitabında verilmiş fəsillərin adlarını oxuyun və suallara cavab verin.**

| Fəsillər | Səhifə |
|---|---|
| Evdə təhlükə . . . . . . . . . | 3 |
| Yolda təhlükə . . . . . . . . | 8 |
| Yadlar və biz . . . . . . . . | 11 |
| Yanğın . . . . . . . . . . . | 15 |

1. Kitabın neçə fəsli var?
2. İkinci fəsil necə adlanır?
3. Üçüncü fəsildə nədən bəhs olunur?

**Ç** Aşağıdakı şəkillər "Təhlükə nədir" kitabının hansı fəsillərinə aiddir?










**3 A** Şəkillər üzrə danışın.



**• Bunları bilməliyik •**

**Cümlə**

*böyük hərf* *nöqtə*

Fərəh gül dərdi.

cümlə

**B** Mətni oxuyun, suallara cavab verin.

**şüşə**

Ayxan su içmək istədi. Su şüşəsi əlindən düşdü. Şüşə qırıntıları ətrafa dağıldı.



**?**

1. *Sizcə, bu hadisə hansı təhlükələr yarada bilər?*
2. *Mətndə neçə cümlə var?*

**C** **Cümlələri oxuyun. Şəkillərlə uyğunlaşdırın.**

a) Qaz sobasına yaxın durmayın.
b) Yad adama qapı açmayın.
c) Elektriklə oynamayın.










**• Hüsnxət •**

Yy

Yy

**Sözləri köçürün.**

yardım
ayran
dayı
Yallı

**• Söz boğçası •**

- işarə
- qadağan
- təmir

**4 A** **İşarələrə aid olan cümlələri oxuyun. Hər bir təhlükə haqqında bildiklərinizi danışın.**



*Həyətdə it var.*



*Yol təmir olunur.*

**B** **Şeiri oxuyun. Suallara cavab verin.**

**UŞAQ VƏ BUZ**

Dərsə gedən bir uşaq
Çıxdı buz üstə qoçaq.
Sürüşdü birdən-birə,
Düşdü üz üstə yerə.

*Mirzə Ələkbər Sabir*

**?**

*1. Uşaq hara gedirdi?*
*2. O nə üçün yıxıldı?*

**C** Yolda hansı işarə olsaydı, uşaq ehtiyatlı olardı?



A B C

**Ç** Cümlələri oxuyun.
Təhlükə bildirən cümlələri köçürün.

Balta itidir. Ayı yatdı.

Ot yandı. Baba nar aldı.

**D** Yaradıcı iş

Cümlələri oxuyun. Həmin cümlələrə
uyğun işarələr düşünün və şəkillərini çəkin.

1. Velosiped sürmək olmaz.
2. Qarşıda qatar yolu var.
3. Zibili yerə atmayın.



• Hüsnxət •

Oo

O o

Sözləri köçürün.

orta

boya

radio

Oba

fəsil 2

# YANĞIN

**1 A** **Şəkildəki kitab cildinə baxın və suallara cavab verin.**




*1. Kitab necə adlanır?*

*2. Kitabın müəllifi kimdir?*

*3. Sizcə, bu kitab nə haqdadır?*

*4. İtlər insanlara necə kömək edir?*

## XİLASKAR İT




**B** **Sözlərdən istifadə edərək mətnə uyğun cümlələr qurun.**

| | | |
|---|---|---|
| Ana | körpəni | baş vermişdi. |
| İt | yangın | xilas etdi. |
| Evdə | yanğınsöndürənə | zəng etdi. |










**C** **Mətndə ən çox xoşunuza gələn hissə hansı oldu? Həmin hissəni nəql edin.**

**• Hüsnxət •**

Ö ö

Ö ö

**Sözləri köçürün.**

ötəri

bölmə

nömrə

Ömər

**2 A** **Sizcə, yanğınsöndürənlər alovdan necə qorunurlar?**

**B** **Şəklə baxın və suallara cavab verin.**



*1. Sizcə, yanğınsöndürən uşaqlara nə deyir?*
*2. Siz yanğınsöndürənə hansı sualları verərdiniz?*
*3. Yanğından qorunmaq qaydaları haqqında nə bilirsiniz?*
*4. Niyə məktəbdə bu qaydalar öyrədilir?*

**• Söz boğçası •**







**• Hüsnxət •**

S s



**Sözləri köçürün.**

saat
masa
səs
Samir

**C** **Şəkillərdəki varlıqların adlarını əlavə etməklə cümlələri oxuyun.**

 zəhərli qazlardan qoruyur.

Yanğınsöndürən başına  taxdı.

 ilə yanğını söndürdük.

3 A **Mətni oxuyun. Mətndə kimlər iştirak edir?**

## AZƏRİN SUALLARI

– Yanğın niyə baş verir?

– Bunun bir neçə səbəbi var. Məsələn, kimsə qaz sobasını söndürmür.

– Yanğın baş verərsə, nə etmək lazımdır?

– Həmin yerdən cəld uzaqlaşın. Sonra isə bu nömrəyə zəng edin: **101**




B **Bu söhbətdə kim sual verir, kim məlumat verir?**

• Bunları bilməliyik •

**Cümlənin növləri**

**Nəqli cümlə** məlumat verir. → Yanğın baş verib. ← *nöqtə*

**Sual cümləsi** soruşur. → Evdə kim var? ← *sual işarəsi*

C **Cümlələri oxuyun. Növlərini müəyyən edin.**

1. *Meşə yanır.*
2. *Onları kim xilas etdi?*
3. *Yanğını necə söndürək?*
4. *Dəbilqə qoruyucu geyimdir.*

Ç **Sizcə, hansı kitab yanğın haqqında daha çox məlumat verə bilər?**







• Hüsnxət •

Ş ş



**Sözləri köçürün.**

*şar*

*maşın*

*şirdaş*

*Şamil*

fəsil 3

# YOLDA TƏHLÜKƏ

**1 A** **Şəkillər üzrə danışın və suallara cavab verin.**





*1. Hansı yol hərəkəti qaydalarını bilirsiniz?*
*2. Uşaqlar hansı qaydaları pozurlar?*
*3. Bu uşaqlara nə məsləhət verərdiniz?*

**B** **Tapmacanı oxuyun və suallara cavab verin.**

Üç qardaş var bir qutuda,
Biri deyir: "Sən dayan, dur".
Biri deyir: "Diqqətli ol".
Biri deyir: "İndi buyur".



*1. "Üç qardaş" dedikdə nə nəzərdə tutulur?*
*2. Hansı qardaş "İndi buyur" deyir?*
*3. Bəs qırmızı rəng nə deyir?*

**• Söz boğçası •**
- işıqfor
- yeraltı keçid
- yerüstü keçid
- piyada zolağı
- səki

**C** **Nöqtələrin yerinə uyğun hecalar əlavə edib dəftərinizə köçürün.**

**şıl** **ya** **dım** **daş** **şın** **ra**

**təy...rə** **ma...** **a...ba** **ya...** **yar...** **yol...**

**Ç** **Şəkil üzrə danışın. Şəkildə təsvir olunmuş binaların adlarını oxuyun.**




**D** **Şəklə diqqətlə baxın. Suallara cavab verin.**

*1. Məktəb hansı binanın qarşısındadır?*
*2. Zooparkın yanında hansı bina var?*
*3. Ayxangilin evinə ən yaxın bina hansıdır?*

**E** **Ayxana evdən zooparka getmək üçün göstərişlər verin.**

**Ə** **Ayxan ünvanı tapmaq üçün yoldakı adamlara müraciət edir. Aşağıdakı sözlərdən istifadə etməklə Ayxana cümlə qurmaqda kömək edin.**

Bağışlayın, ...
Zəhmət olmasa, ...
Xahiş edirəm, ...

**Nümunə:**
*Bağışlayın, bu yolda yeraltı keçid haradadır?*

• Hüsnxət •

U u

Sözləri köçürün.

un
bulud
duru
Usta

## 2 A Şeiri oxuyun. Şəkillərə uyğun olan cümlələri tapın.

**YOL**

Yaşıl işıq yananda,
Maşınlar dayananda
Yolu cəld keç, yubanma,
Hara gəldi boylanma.

Ayaq saxla, bir dayan,
Yolu keçmə buradan,
Keç yeraltı keçiddən,
Uzaq ol təhlükədən.





## B Qruplarla iş

**Cümlələrə uyğun gələn işarələri seçin.**


1


2


3


4


5


6


7


8

| | |
|---|---|
| **1-ci qrup:**<br>• Yol sürüşkəndir.<br>• Qarşıda yeməkxana var. | **2-ci qrup:**<br>• Giriş qadağandır.<br>• Qarşıda dəmiryol var. |
| **3-cü qrup:**<br>• Qarşıda içməli su var.<br>• Sağa dönün. | **4-cü qrup:**<br>• Sola dönün.<br>• Qarşıda xəstəxana var. |

• Hüsnxət •

Ü ü

Ü ü

**Sözləri köçürün.**

ütü
müəllim
tüstü
Ümid

**3 A** **Mətni oxuyun, suallara cavab verin.**

**DAĞ YOLUNDA**

Biz ailəmizlə dağa gedirdik. Yolun kənarında bir işarə gördük. Atam maşını saxladı. Mən səbəbini soruşdum. O dedi:

– Samir, gərək ehtiyatlı olaq. Qayadan daşlar tökülə bilər.

?

*1. Samirgil hara gedirdilər?*
*2. Dağ yolunda hansı təhlükələr ola bilər?*

**B** **Sizcə, yolun kənarında hansı işarə var idi?**



**C** **Samir atasından nə soruşdu?**
**Həmin cümləni dəftərinizə köçürün.**

*– Maşın xarab oldu.*
*– Ata, niyə dayandın?*
*– Bu yol təhlükəlidir.*

**• Söz boğçası •**

- qaya
- təlimat

**Ç** **Yaradıcı iş**

**Oxuyun. Ardıcıllığa əməl etməklə işıqfor şəkli çəkin.**



1. Vərəqdə düzbucaqlı çəkin.
2. Düzbucaqlının içərisində 3 dairə çəkin.
3. Yuxarıdakı dairəni qırmızı, ortadakı dairəni sarı, aşağıdakı dairəni isə yaşıl rəngləyin.

**• Hüsnxət •**

K k

*K k*

**Sözləri köçürün.**

*kələm*
*sakit*
*ərik*
*Kamal*

fəsil 4

# EVDƏ TƏHLÜKƏ

**1 A** **Şəklə diqqətlə baxın və təhlükə yaradan əşyalar haqqında danışın.**



1. Kəsici və deşici ev əşyalarını sadalayın.
2. Evdə istifadə olunan hansı elektrik cihazlarını tanıyırsınız?
3. Onların yaratdığı təhlükələr barədə danışın.

**B** **Mətni oxuyun. Fərqli rənglərdə verilən hər bir hissəyə uyğun şəkli seçin.**

## OYUNCAQ MAĞAZASINDA

**Aydan:**

– Mən bu oyuncağı istəyirəm.

**Ayxan:**

– Aydan, biz bunu ala bilmərik.

Ayxan oyuncaq qutusunun üzərindəki işarəni göstərdi:

– Bu oyuncaq 6 yaşdan yuxarı olan uşaqlar üçündür.

a



b



c



**• Söz boğçası •**

- kəsici alət
- deşici alət
- elektrik cihazı

**C** **Verilmiş cümlələrin kimə aid olduğunu müəyyən edin.**

Ayxan

Aydan

*1. Niyə? Axı bu mənim xoşuma gəlir.*
*2. Bu oyuncaq sənin yaşına uyğun deyil.*
*3. Bundan sonra diqqətli olaram.*
*4. Onda sənə başqa oyuncaq seçək.*

**Ç** **Bu oyuncaqlardan hansı yaşda uşaqlar istifadə edə bilər?**




**D** **Sözləri vaqonların rənginə uyğun ardıcıl oxuyun və cümlənin növünü müəyyən edin.**




**E** **Hansı cümlələr kiçikyaşlı uşaqlar üçün təhlükədən xəbər verir?**

*1. Uşaqlar oyuncağın xırda hissələrini uda bilərlər.*

*2. Oyuncaq uşaqlar üçün maraqlı olmaya bilər.*

*3. Bəzi oyuncaqlar çox baha olur.*

*4. Oyuncaqların bəzi hissələri uşağı yaralaya bilər.*

*5. Bəzi oyuncaqların materialı zərərli ola bilər.*

**2 A** **Evdə böyüklər sizi hansı təhlükələr barədə xəbərdar edirlər?**

**B** **Şeiri oxuyun. Təhlükə haqqında məlumat verən cümlələri seçin.**

### AĞILLI ÖMƏR

İndi altı yaşım var,
Daha böyük oğlanam.
Bacımla tək qalırıq
İşə gedəndə anam.

Bilirəm ki, kibritlə
Heç vaxt oynamaq olmaz.
Mətbəxdə qaz yananda
Yanında durmaq olmaz.

Ütü, qayçı, bıçağa
Əlimi uzatmaram.
Oyuncaqla oynasam,
Sonra onu yığaram.

Elektrik xəttinə
Gərək dəyməsin əlim.
Bunu mənə öyrədib
Anam, atam, müəllim.

*H.Həsənov*

**C** **Hansı şəkildəki əşyanın adı şeirdə yoxdur?**



• Hüsnxət •

P p

Sözləri köçürün.

pay
kirpi
top
Püstə

**Ç** **Şeir kimin dilindən söylənilir?**

**D** **Ömərin ailəsində neçə nəfər var?**

**E** **Aşağıda verilmiş sözləri köçürün. Saitlərin altından xətt çəkin.**

*sap, usta, albalı, palıd, kibrit*

*köpük, müəllim, ərik, pis, tar*

*limon, arpa, yaşıl, alət, pilləkən*

*mürəbbə, kitab, mart, ip, parta*

**3 A** **Hansı təhlükəli hadisə ilə qarşılaşmısınız?**

**B** **Aşağıdakı şəkillərin ardıcıllığını müəyyən edib hekayə qurun.**



**C** **Qruplarla iş**

**Cümlələri oxuyun. Hadisələrin davamını düşünün və danışın.**

| **1-ci qrup:** | **2-ci qrup:** |
|---|---|
| *Süfrədə alma var idi. Aydan bıçaqla almanı kəsmək istədi...* | *Lalə gəlinciyinin paltarını yumaq istədi. O, paltaryuyan maşını elektrik xəttinə qoşdu.* |
| **3-cü qrup:** | **4-cü qrup:** |
| *Ana tavada toyuq qızardırdı. Cavid tavaya yaxınlaşdı...* | *Aysel eyvanda kukla ilə oynayırdı. Birdən kukla eyvandan aşağı düşdü...* |

**Ç** **Hansı cümlələrin sonunda durğu işarəsi yanlış qoyulub?**

1. *Sən hara gedirsən.*
2. *Qapını döyən kimdir?*
3. *Qaz nə vaxt sönüb?*
4. *Hansı bıçaq itidir.*

**D** **Cümlələrin sonuna uyğun gələn durğu işarəsini müəyyən edib köçürün.**

1. *Paltarı kim ütüləyir*
2. *Bu işarə nə bildirir*
3. *Sobada nə bişir*



**• Hüsnxət •**

**V v**

*V v*

**Sözləri köçürün.**

*vətən*

*avtobus*

*Murov*

*Validə*

# •fəsil• 5 Xilasedicilər




**1 A Şəkildə verilmiş kitab cildinə baxın.**

*1. Kitabın adı nədir?*
*2. Kitabın müəllifi kimdir?*
*3. Sizcə, kitabda nədən danışılır?*

**B Mətni oxuyun və suallara cavab verin.**

## QARTALIN TƏŞƏKKÜRÜ



Ziya baba tələyə düşmüş qartalı xilas etdi.



Bir gün qartal Ziya babanın papağını götürüb uçdu.



Baba qartalın dalınca qaçaraq evdən uzaqlaşdı.



Bu zaman zəlzələ baş verdi.
Babanın evi dağıldı.



Baba başa düşdü ki, qartal onu xilas etmək istəyib.

**?** *1. Qartal nə üçün babanın papağını götürüb uçdu?*
*2. Mətni başqa necə adlandırmaq olar?*

**C** **Hansı şəkil mətnin sonluğuna uyğundur?**



*Qartal tələdən xilas olmağa çalışırdı.*



*Baba uçmuş evini yenidən tikdi.*



*Bir gün Ziya baba evin kölgəsində oturmuşdu.*

**Ç** **Qartal haqqında məlumatları oxuyun və suallara cavab verin.**

1 Qartal caynaqları ilə istədiyi aşyanı götürə bilir.

2 Qartal zəlzələni qabaqcadan hiss edir.

3 Qartal yırtıcı quşdur.

?

1. *Hansı məlumatlar "Qartalın təşəkkürü" mətnindəki məlumatlara uyğun gəlir?*
2. *Aşağıdakı şəkil hansı məlumatları təsdiq edir?*



• Hüsnxət •

E e



Sözləri köçürün.

eynək

yeni

karate

Etibar

**2 A** **Oxuduğunuz hansı mətnlərdə heyvanların insanlara yardımından danışılır?**

**B** **“Alabaşın köməyi” mətnini dinləyin. Mətnə əsasən aşağıdakı cümlələrin ardıcıllığını müəyyən edin.**



*1. Birdən canavar onlara hücum etdi.*
*2. Qoyunlar dağda otlayırdılar.*
*3. Alabaş canavarı qovdu.*
*4. Çoban Alabaşı köməyə çağırdı.*

**C** **Şəkillərə diqqətlə baxın. Heyvanların insanlara yardımı barədə danışın.**

**• Söz boğçası •**

- çoban
- sürü



**• Hüsnxət •**

G g

G g

**Sözləri köçürün.**

güldan
kölgə
pələng
Gülnar

**Ç** **Aşağıdakı sözləri köçürün. Samitlərin altından xətt çəkin.**

Alabaş, sürü, kömək, gül, it

**3 A** **Şeiri oxuyun. Şeirdə hansı təhlükə haqqında xəbərdarlıq edilir?**

## ÇAYDA

İsti havada – yayda
Uşaqlar çimir çayda.
Çimmək hər şeyə dəyər!
Üzmək bilmirsən əgər,
Çox getmə, dərin olar!
Bax təhlükə yaranar!

*Xanımana Əlibəyli*



**B** **Verilmiş şəkilləri şeirlə əlaqələndirin. Onlar haqqında bildiklərinizi danışın.**



*halqa*



*qolçaq*



*jilet*



*xilasedici*

**C** **Cümlələri oxuyun. Məlumatların kimə aid olduğunu müəyyən edin.**

1. *Odadavamlı paltar geyinir.*
2. *Dənizdə çimənlərə nəzarət edir.*
3. *Suda batan insanları xilas edir.*
4. *Qorunmaq üçün respirator taxır.*





**Ç** **Nöqtələrin yerinə uyğun saitlər əlavə edərək sözləri köçürün.**

təm...r, iş...rə, yanğ...n, k...brit, iyn...

**• Hüsnxət •**

Ğ ğ



**Sözləri köçürün.**



# Ümumiləşdirici təkrar

**4 A Sözləri oxuyun. Hansı fəslə aid olduğunu müəyyən edin.**

**Sözlər**

*kəsici alət*
*respirator*
*zəlzələ*
*işıqfor*

**Fəsillər**

- YANĞIN
- YOLDA TƏHLÜKƏ
- EVDƏ TƏHLÜKƏ
- XİLASEDİCİLƏR

**B Hər sırada növünə görə fərqli olan cümləni seçin.**

| | | |
|---|---|---|
| a. Qızı kim xilas etdi? | b. İşıqforun üç rəngi var. | c. Yerüstü keçid haradadır? |
| a. Xilasedici kimdir? | b. Burada piyada zolağı var. | c. Balta itidir. |
| a. Mən xilasedici jilet geyindim. | b. Qolçaq nə üçün istifadə olunur? | c. Çay dərindir. |

**C Mətndə buraxılmış səhvləri tapın.**

mən təhlükə ilə bağlı qaydaları bilirəm Bu qaydaları dostlarıma da öyrədirəm. bəs siz hansı qaydaları bilirsiniz.

**Ç Yaradıcı iş** **Verilmiş mövzulardan birini seçin və həmin mövzuda kitab üçün cild tərtib edin. Bu kitabda hansı fəsillər ola bilər?**

- Bitkilər
- Təbiət hadisələri
- Geyimlər
- Nəqliyyat vasitələri



# 3 SAĞLAM HƏYAT

**1 A Şəkillərə baxın və suallara cavab verin.**





- Sağlamlığı necə qorumaq olar?
- Gün rejimi nə üçün lazımdır?
- İdman sağlamlığımıza necə təsir edir?
- Düzgün qidalanmaq nəyə görə vacibdir?
- Niyə təmizliyə riayət etməliyik?













## B Mətni oxuyun. Ayanın gün rejimini öz gün rejiminizlə müqayisə edin.

### AYANIN GÜN REJİMİ



Ayan səhər saat yeddidə yuxudan oyanır.



Səhər idmanı edir.



Yuyunur, dişlərini fırçalayır.



Səhər yeməyini yeyir.



Ayanın dərsləri saat səkkizdə başlayır.




Ayan məktəbdən qayıdır.



Əllərini yuyur. Nahar edir.



Asudə vaxtını ailə üzvləri ilə keçirir.



Axşam saat doqquzda yatır.

**• Söz boğçası •**

- gün rejimi
- nahar
- asudə vaxt

**• Hüsnxət •**

H h

*H h*

**Sözləri köçürün.**

*halva*

*səhra*

*timsah*

*Hilal*

## C Cütlərlə iş

**Yoldaşınızın gün rejimi haqqında məlumat toplayın. Aşağıdakı suallardan da istifadə edə bilərsiniz.**

1. *Sən saat neçədə yuxudan oyanırsan?*
2. *Səhər idmanı edirsənmi?*
3. *Məktəbdən sonra vaxtını necə keçirirsən?*
4. *Saat neçədə yatırsan?*

## 2 A Şəklə baxın. Suallara cavab verin.



1. *Şəkildə hara təsvir olunub?*
2. *Nə üçün Ayan Əliyə təəccüblə baxır?*
3. *Sizcə, Əli gün rejiminin hansı qaydasına əməl etməyib?*
4. *Siz Əliyə hansı məsləhətləri verərdiniz?*

## B Mətni oxuyun. Şəkillərin köməyi ilə nəql edin.







## C Hadisələrin ardıcıllığını müəyyənləşdirin.

**a.** *Əli sinifdə yuxuladı.*
**b.** *Əli artıq vaxtında yatır.*
**c.** *Əli gec yatdı, çünki oyundan ayrıla bilmirdi.*
**d.** *Müəllim izah etdi ki, yuxu rejimi vacibdir.*

**3 A** **Şəkillərə baxın. Suallara cavab verin.**

*İdman zalında*



*Rəsm dərnəyində*



- Şəkillərdə **kimləri** görürsünüz?
- Ayanın əlində **nə** var? O **harada** məşq edir?
- Əliyə şəkil çəkməyi **kim** öyrədir? O **nə** şəkli çəkir?

**• Söz boğçası •**

- dərnək
- məşqçi
- halqa
- lent
- molbert
- dolça

**• Sözlərin yazılışı •**

| Doğru | Yanlış |
|---|---|
| rəsm | rəsim |
| məşq | məşk |

**• Hüsnxət •**

Cc

*C c*

**Sözləri köçürün.**

*cücə*

*bacı*

*tac*

*Cəmilə*

**• Bunları bilməliyik •**

**Ad bildirən sözlər**

| Kim? | Nə? | Hara? |
|---|---|---|
| məşqçi<br>Ayan | saat<br>oyun | meşə<br>Şuşa |

**B** **Göy rəngli sözləri uyğun olaraq "kim", "nə", "hara" sözləri ilə əvəz edin.**

- Ayanın əlində lent var.
- Ayana məşqçi kömək edir.
- Küçə genişdir.

**C** **Sözləri köçürün. Qarşısında suallarını yazın.**

Nümunə: *kitab – nə?*

oğlan, park, corab, ev, Tural, gül, Bakı

**4 A** **Şeiri oxuyun. Atanın oğluna verdiyi məsləhətləri yadda saxlayın.**

## MƏKTƏBƏ GET, DƏRS OXU!

Ağıllı oğlum, oyan!
Qiymətlidir hər zaman.
Tez ol, dur, get məktəbə,
Sarıl elmə, ədəbə.

Səhər ziyandır yuxu,
Məktəbə get, dərs oxu!
Al şəfəqli günəş var,
Pəncərədən parıldar.

Qalx ki, hamı oyanmış,
Dünya nura boyanmış,
Səhər ziyandır yuxu,
Məktəbə get, dərs oxu!

*Abdulla Şaiq*



**• Söz boğçası •**

- ədəb
- al
- şəfəq
- nur

**• Hüsnxət •**

Ç ç

Ç ç

**Sözləri köçürün.**

çiçək
alça
saç
Çinarə

**B** **Məsləhətləri oxuyun. Hansı məsləhətlər şeirdə *yoxdur*?**

1. *Yoldaşlarınla mehriban ol.*
2. *Dərs oxu!*
3. *Məktəbə get.*
4. *Səliqəli yaz.*
5. *Səhər tezdən oyan.*

**C** **Verilmiş sözləri cümlələrdə işlədin.**

*gümrah, ziyan, nahar,*
*nur, qiymətli, dərnək*

**Ç** **Uyğun gələn sözləri əlavə edərək cümlələri köçürün.**

***nahar,*** *yoxsa* ***idman***

*Ayan səhər ... edir.*

***məktəbə,*** *yoxsa* ***dərnəyə***

*Əli dərsdən sonra ... gedir.*

***gümrah,*** *yoxsa* ***yorğun***

*Əli vaxtında yatanda ... olur.*

**D** **Cümlələrə uyğun olaraq şəkilləri düzgün sıralayın.**

**1.** *Yuxudan oyanıram.*
**2.** *Yuyunuram.*
**3.** *Səhər yeməyini yeyirəm.*
**4.** *Məktəbə gedirəm.*
**5.** *Məktəbdən qayıdıram.*
**6.** *Əllərimi yuyub nahar edirəm.*
**7.** *Nahardan sonra dincəlirəm.*
**8.** *Vaxtında yatıram.*
























# İDMAN

**Söz boğçası**
- fərdi
- komanda
- bəhanə

## 1 A Şəkillərə diqqətlə baxın. Suallara cavab verin.

**Futbol**



**Üzgüçülük**



**Güləş**



*1. Bu kitabçalar hansı idman növləri haqqındadır?*
*2. Siz daha hansı idman növlərini tanıyırsınız?*
*3. Sizcə, insanlar nə üçün idmanla məşğul olurlar?*

**Hüsnxət**

Q q



**Sözləri köçürün.**

qartal
saqqal
bıçaq
Qabil

## B Şeiri oxuyun.

**İDMAN DƏRSİ**

Nənəsi çağırır ki,
Ay Ülviyyə, evə gəl.
Dərslərini oxu, yaz.
Xörəyini ye, dincəl.

Top oynayırdı deyə
Qız tez tapdı bəhanə.
Dedi, idman dərsini
Öyrənirəm, ay nənə!

*Aləmzar Əlizadə*



## C Sizcə, nənə Ülviyyə üçün niyə narahat olurdu? Uyğun variantı seçib cümlələri tamamlayın.

*1. Dincəlməsə, ...*
*2. Yemək yeməsə, ...*
*3. Dərslərini oxumasa, ...*

*a) özünü zəif hiss edər.*
*b) cavab verə bilməz.*
*c) səhəri gün yorğun olar.*

**2 A** **Mətni oxuyun. Şəkillərə baxın. Mətndə Ayının hansı dostlarının adı çəkilmir?**

## AYI VƏ DOSTLARI

Heyvanlar səhər idmanı edirdilər. Təkcə Ayı yuxudan durmaq istəmirdi. Bir gün belə, iki gün belə...



Dostları onu danlayırdılar:

– Belə olmaz! Günü-gündən tənbəlləşirsən.



Bir gün meşədə yanğın baş verdi. Heyvanlar qaçmağa başladılar. Ayı da yaman qorxmuşdu. Amma sürətlə qaça bilmirdi. Dostları onu çayın kənarına gətirdilər.



Meşə kralı Şir dedi:

– Bu sənə dərs olsun! İdmanla məşğul olsaydın, cəld, çevik olardın. Özünü də, dostlarını da təhlükəyə atmazdın.

*Ülkər Rəhimqızı*



**Söz boğçası**

- cəld
- kral
- çevik
- dərs olmaq

## B Hansı təsvir mətnə aiddir?





**• Bunları bilməliyik •**

**Obraz, baş qəhrəman, xarakter**

| Obrazlar | | | Baş qəhrəman | Xarakter |
|---|---|---|---|---|
|  |  |  |  |  |
| Ayı | Şir | Tülkü | Ayı | tənbəl |

Mətndə obraz adlarının ilk hərfi böyük yazılır.
Obraz kim? sualına cavab verir.

## C “Ayı və dostları” mətninə aid cümlələri oxuyun. Hərəkətlər hansı obrazlara aiddir?

*1. Hər səhər idman edirlər.*
*2. Tənbəllik edir, bütün günü yatır.*
*3. Hamını təhlükəyə atdığı üçün Ayını danlayır.*

## Ç Mətndəki hadisələrin ardıcıllığını müəyyənləşdirin.

- *Yanğın vaxtı Ayı çətin vəziyyətə düşdü.*
- *Ayı çox yatırdı.*
- *Heyvanlar idman edirdi.*
- *Meşə kralı Şir onu danladı.*

**• Hüsnxət •**

Ff



**Sözləri köçürün.**

fırça
süfrə
şərf
Fikrət

## 3 A Şəkillərdə hansı yarışlar təsvir olunub? Yarışmağı sevirsinizmi? Səbəbini izah edin.







## B Mətni oxuyun. Obrazların adlarını dəftərinizdə qeyd edin.

**YARIŞ**

Lovğa Dovşan və Tısbağa qaçış yarışına çıxmışdılar. Dovşan bilirdi ki, Tısbağa asta yeriyir. Özünün isə sürətli ayaqlarına arxayın idi. Düşünürdü ki, Tısbağanı asanlıqla ötüb-keçəcək. Ona görə də bir ağacın altında uzanıb dincəlmək istədi.

O, yuxuya getdi. Ayılanda gördü ki, Tısbağa artıq finiş xəttinə çatıb.





**• Söz boğçası •**

- yarış
- arxayın
- finiş xətti
- lovğa

**• Sözlərin yazılışı •**

| Doğru | Yanlış |
|---|---|
| lovğa | loğa |
| dovşan | doşan |

## C Mətnə görə cümlələrin ardıcıllığını müəyyən edin.

a) Dovşan yuxuya gedir.
b) Dovşan və Tısbağa yarışırlar.
c) Tısbağa qalib gəlir.

## Ç Mətndəki obrazların xarakteri haqqında fikirlərinizi deyin.

## 4 A Uyğunluğu müəyyən edib cümlələri yazın.

1. *Tısbağa asta ...*
2. *Dovşan ...*
3. *Dovşan ilə Tısbağa ...*

*dincəlirdi.*
*yarışırdılar.*
*yeriyirdi.*

**• Bunları bilməliyik •**

**Hərəkət bildirən sözlər**

**Nə edir?**

üzür — qaçır — tullanır — sürür



## B Hərəkət bildirən sözləri seçib cümlədə işlədin.

*ayı, yazır, oxuyur, tənbəl, oynayır, dovşan, gedir*

## C Qruplarla iş

**Şəkillər əsasında nağıl qurub danışın.**



**• Hüsnxət •**

Z z

*Z z*

**Sözləri köçürün.**

*zər*
*üzüm*
*ulduz*
*Zəki*

# GİGİYENA QAYDALARI

## 1 A Şəklə baxın. Suallara cavab verin.




*1. Həkim nəyə baxır?*
*2. Mikrobları necə görmək olar?*
*3. Sizcə, mikroblar niyə yaranır?*
*4. Onların qarşısını necə ala bilərik?*

## B Mətni oxuyun. Davamını təxmin edin.

**ŞİKAYƏT**

Anarın tez-tez dişi, qarnı ağrıyırdı. Bir gün yuxu gördü...

Dişləri ona deyirdi:
– Anar, hər gün
səhər və axşam bizi fırçala.

Əlləri deyirdi:
– Anar, gün ərzində
bizi tez-tez yu.



**• Söz boğçası •**
- gigiyena
- mikrob
- mikroskop
- diş fırçası
- diş məcunu

## C Cümlələri tamamlayıb yazın.

1. Anarın dişləri ağrıyırdı, çünki ...
2. Anarın qarnı ağrıyırdı, çünki ...

*a) əllərini yumurdu.*
*b) dişlərini fırçalamırdı.*

**• Sözlərin yazılışı •**

| Doğru | Yanlış |
|---|---|
| mikrob | mikrop |
| mikroskop | mikraskop |

## 2 A

**Şəkillərlə cümlələri uyğunlaşdırın.**

**GİGİYENA QAYDALARI**

Nümunə: **1 – ç**

1 
2 
3 
4 
5 
6 

*a) Səhər və axşam dişlərinizi fırçalayın.*
*b) Yeməkdən əvvəl və sonra əllərinizi yuyun.*
*c) Asqıranda və öskürəndə ağzınızı tutun.*
*ç) Saçlarınızı darayın, səliqəli saxlayın.*
*d) Vaxtaşırı dırnaqlarınızı tutun.*
*e) Həftədə bir-iki dəfə duş qəbul edin.*

**• Bunları bilməliyik •**

**Əlamət bildirən sözlər**

**Necə? Nə cür? Hansı?**
→ səliqəli
→ gümrah
→ sağlam
→ təmiz

## B

**Şəkillərə baxın.**
**Nöqtələrin yerinə uyğun gələn sözləri yazın.**

sağlam çirkli xəstə təmiz


... köynək


... köynək


... uşaq


... uşaq

## C

**Nöqtələrin yerinə əlamət bildirən sözlər artırıb dəftərinizə yazın.**

1. *Anam mənə ... köynək verdi.*
2. *... əllərlə yemək yemə.*
3. *İdmançının ... bədəni var.*
4. *... uşaq tez-tez öskürürdü.*

**• Hüsnxət •**

J j



**Sözləri köçürün.**

*jurnal*
*əjdaha*
*qaraj*
*Jalə*

**3 A** **Şeiri oxuyun. Verilmiş şəkillərdən hansıları şeirdəki obrazı təsvir edir? Fikrinizi şeirdən gətirilmiş nümunələrlə izah edin.**

**TƏMİZLİK**

Səhər durunca
Əlimdə fırça,
Yudum dişimi,
Bildim işimi.
İnanmırsan, bax,
Dişim ağappaq.
Üstüm tərtəmiz,
Bax beləyik biz.

*Abdulla Şaiq*

a


b


c


ç


**B** **Açar sözlərdən istifadə edərək “Şikayət” mətnindəki Anar obrazını “Təmizlik” şeirinin qəhrəmanı ilə müqayisə edin.**

*İstifadə üçün sözlər: gigiyena qaydaları, çirkli, fırçalamaq, təmiz, yumaq, xəstələnmək*

**C** **Anarın sadaladığı əlamətlərə hansı meyvə uyğun gəlir? Hansı şagird bu oyunun qalibi olacaq? Qruplarla bu oyunu davam etdirin.**



Uzunsov, sarı, yaşıl,
şirin meyvədir.
Ayılar onu çox sevir.



Ayan Nigar Rəhim

**Ç** **Sözlərlə mənalarını uyğunlaşdırıb dəftərinizə yazın.**

| | |
|---|---|
| 1. gigiyena | *a) mikrobları görmək üçün alət* |
| 2. mikrob | *b) diş yumaq üçün vasitə* |
| 3. mikroskop | *c) təmizlik* |
| 4. məcun | *ç) xəstəliklərin səbəbi* |

## 4 A Yaradıcı iş

**Şəkillər üzrə hekayə qurun.**

*1. Şəkillərin ardıcıllığını müəyyənləşdirin.*

a

b

c

ç


*2. Aşağıdakı suallar sizə danışmağa kömək edəcək.*

- *Hekayə hansı hadisə ilə başlayır?*
- *Oğlan hansı problemlə qarşılaşmışdı?*
- *Problem necə həll olundu?*
- *Nəticədə nə baş verdi?*

*3. Hekayənizdə hansı obrazlar iştirak etdi?*

*4. Hekayənizə başlıq verin.*

**Faydalı məsləhət**

Hekayəni danışarkən cümlələri belə başlaya bilərsiniz:

***Əvvəl** Anar dişlərinə qulluq etmirdi.*
***Sonra** ...*
***Daha sonra** ...*
***Sonda** ...*

## B Əlamət bildirən sözləri aid olduğu sözlərlə uyğunlaşdırıb dəftərinizə yazın.

| | |
|---|---|
| yamyaşıl | masa |
| dolu | nar |
| qırmızı | ağac |
| dairəvi | kisə |

Nümunə:

*yamyaşıl ağac*





•fəsil• 4

# SAĞLAM QİDA

**1 A Suallara cavab verin. Şəkil üzrə sağlam qida haqqında danışın.**

Günlük menyumuzda müxtəlif məhsullar olmalıdır. Onların bəzilərindən daha çox, digərlərindən isə az istifadə etməliyik.




- Günlük menyumuzun **neçə** bölməsi var?
- **Neçənci** bölməyə daha çox yer ayrılıb?

**B Əli və Anarın nahar üçün hazırladıqları menyulara nəzər salın. Hansı menyu faydalı qidalardan ibarətdir?**

**• Söz boğçası •**

- qida
- məhsul
- vitamin
- menyu



**C** Cütlərlə iş

**Nahar menyusu hazırlayın. A tapşırığında sağlam qida ilə bağlı verilmiş təsvirdən istifadə edə bilərsiniz.**

**2 A** **Şəkillərdən istifadə etməklə cümlələri tamamlayın. 62-ci səhifədə A tapşırığında verilmiş qida adlarından istifadə edin.**

*1. Sümüklərin möhkəm olması üçün*  *ilə qidalanmalıyıq.*

*2. Enerji almaq üçün*  *istifadə etməliyik.*



*3. Vitamin almaq üçün*  *yeməliyik.*

**B** **Şeiri oxuyun. Şəkillər arasından şeirdə adı çəkilməyən meyvələri tapın.**

**MEYVƏLƏR**

Bizim qəşəng uşaqlar
Gərək yesin heyva, nar,
Püstə, badam, şaftalı,
Armud, ərik, albalı,
Əncir, limon, portağal,
Əzgil, böyürtkən, zoğal,
Alça, gilas, gilənar.
Bu dadlı meyvələrin
Uşaqlara xeyri var.

*Emil Mehdiyev*



**C** **Suallara cavab verin.**

*1. Şeirdə günlük menyumuzun hansı bölməsindən danışılır?*

*2. Şair uşaqlara hansı məsləhəti verir?*

**• Sözlərin yazılışı •**

| Doğru | Yanlış |
|---|---|
| şaftalı | şafdalı |
| püstə | püsdə |

**3 A Mətni oxuyun. Şəkildəki meyvələr haqqında bildiklərinizi mətndəki məlumatlarla müqayisə edin.**

**• Söz boğçası •**

- mübahisə etmək
- zəngin
- təriflәmək
- bəkməz

## MEYVƏLƏRİN SÖHBƏTİ

Yay idi. Artıq bağda dadlı meyvələr yetişmişdi. Onlar hər gün mübahisə edirdilər. Alça deyirdi:

– Dünyada məndən gözəl meyvə yoxdur. Vitaminlərlə zənginəm.

Gavalı özünü belə tərifləyirdi:

– Mənimtək meyvə hanı? Mən həm sarı, həm bənövşəyi, həm də yaşıl rəngdə oluram.

Ərik də lovğalanırdı:

– Mən sizintək turş deyiləm. Bal kimi şipşirinəm. Min bir dərdin dərmanıyam.

Üzüm də özünü tərifləyirdi:

– Meyvələr içində hamıdan faydalıyam. Kişmiş də, bəkməz də məndən hazırlanır.

Axırda bağban söhbətə qarışdı:

– Ay meyvələr, dalaşmayın. Hər birinizin öz dadı, öz faydası var.

Bağbanın bu sözlərindən sonra meyvələr sakitləşdi.

*Məhəmməd Füzuli*



**B** **Mətnə əsasən cümlələrin hansı obraza aid olduğunu müəyyənləşdirin.**

- *Mən bal kimi şipşirinəm.*
- *Vitaminlərlə zənginəm.*
- *Hər kəsin öz dadı, öz faydası var.*
- *Məndən bəkməz, kişmiş hazırlanır.*
- *Müxtəlif rəngdə oluram.*

## C Rollu oyun

**Sevdiyiniz meyvələri tərifləyərək “Meyvələrin söhbəti”ni davam etdirin.**

**Ç** **Nöqtələrin yerinə uyğun sözləri əlavə edib köçürün.**

***təriflədi, mübahisə, zəngin, bəkməz***

Meyvələr ... edirdilər.
Üzümdən ... hazırlanır.
Meyvələr özlərini ... .
Meyvələr vitaminlə ... olur.

**D** **Şəkillərə aid cümlələr qurun.**





• Bunları bilməliyik •

**Say bildirən sözlər**

| Neçə? | Neçənci? | Nə qədər? |
|---|---|---|
|  |  |   |
| **üç** | **birinci** | **az** **çox** |

**E** **Say bildirən sözləri seçib cümlədə işlədin.**

***menyu, altı, idman, çox, qida, sağlam, on, beş, dırnaq, faydalı, iki, üçüncü***

## 4 A Mətni oxuyun. Sizin üçün maraqlı olan məlumatları qeyd edin.

### ÇÖRƏK AĞACI

İsti ölkələrdə maraqlı bir ağac bitir. Bu ağac "çörək ağacı" adı ilə tanınır. Meyvəsi sarı və ya açıq-yaşıl rəngdədir. Formasına görə qovuna bənzəyir. Onun tərkibi vitaminlərlə zəngindir. Ən çox meyvə salatlarında istifadə edilir. Bişərkən ondan çox gözəl çörək ətri gəlir. Ona görə də bu ağacı "çörək ağacı" adlandırırlar.



**B** **Cümlələrdəki səhvləri düzəldərək "Çörək ağacı" haqqında düzgün məlumatlar verin.**

*Nümunə: Soyuq ölkələrdə yetişir.*
*– Xeyr, "çörək ağacı" isti ölkələrdə bitir.*

**• Söz boğçası •**
- qovun
- tərkib

1. *Meyvəsi tünd-yaşıl rəngdədir.*
2. *Quruluşu qarpıza bənzəyir.*
3. *Tərkibində vitaminlər var.*

**C** **"Çörək ağacı" mətninə aid açar sözləri seçin. Həmin sözləri yeni cümlələrdə işlədin.**

*çiçək, ağac, sarı, qarpız, qovun, tərəvaz, vitaminli, ətirli, meyvə*

**• Bunları bilməliyik •**

**Açar sözlər**

Mətnlə sıx bağlı olan sözlər açar sözlər adlanır. Açar sözlər mətni daha yaxşı başa düşməyə kömək edir.

**Ç** **Cümlələri köçürün. Ad bildirən sözləri göy, əlamət bildirən sözləri sarı, say bildirən sözləri qırmızı, hərəkət bildirən sözləri yaşıl rənglə işarə edin.**

- *Bağban çoxlu qırmızı alma dərdi.*
- *Leyla iki ala-bəzək kəpənək tutdu.*
- *Arzu birinci səbətə iri göbələklər yığdı.*

**5 A** **Meyvə salatının resepti ilə tanış olun:**

*1. Meyvə salatının tərkibini oxuyun.*

*2. Daha sonra hazırlanma qaydasını oxuyun. Bu zaman cümlələrə uyğun olaraq aşağıdakı sözləri artırın: **“sonda”, “əvvəlcə”, “sonra”.***

**• Söz boğçası •**
- qəlyanaltı
- resept

## Meyvə salatının resepti

**Tərkibi:**

1 ədəd alma
1 ədəd armud
5 ədəd çiyələk
1 qab yoğurt

**Hazırlanma qaydası:**



... meyvələri yuyuruq.



... meyvələri doğrayıb bir qaba yığırıq.



... bu meyvələrin üzərinə yoğurt tökürük.

Nuş olsun!

**B** **İndi isə sevdiyiniz meyvə salatının tərkibini yazın. Say bildirən sözlərin altından xətt çəkin.**

**C** **Özünüz üçün günlük menyu hazırlayın.**

| Səhər yeməyi | Qəlyanaltı | Nahar | Axşam yeməyi |
|---|---|---|---|
| ______ | ______ | ______ | ______ |
| ______ | ______ | ______ | ______ |
| ______ | ______ | ______ | ______ |
| ______ | ______ | ______ | ______ |
| ______ | ______ | ______ | ______ |

**Ç** **Verilmiş sözləri cümlələrdə işlədin.**

***gigiyena, qida, məhsul, zəngin, bəkməz, menyu, vitamin***

# Ümumiləşdirici təkrar

**6 A** **Bu bölmədə keçdiyiniz fəsillər sizə nəyi öyrətdi? Uyğunlaşdırın.**

1 gigiyena qaydaları

2 gün rejimi

3 idman

4 sağlam qida

ÖYRƏTDİ

a İntizamlı olmağı, vaxtını düzgün bölüşdürməyi

b Möhkəm və sağlam bədənə sahib olmağı

c Mikroblardan qorunmağın yollarını

d Bədənimizi vitamin və enerji ilə təmin etməyi

**B** **Verilmiş sözləri cədvəl üzrə qruplaşdırın.**

*küçə, çevik, çox, qaçır, təhlükəli, birinci, dərnək, az, gözəl, güldü, rəssam*

| ad bildirən | əlamət bildirən | say bildirən | hərəkət bildirən |
|---|---|---|---|
| | | | |

**C** **Dəftərinizdə hər suala cavab olan bir söz yazın.**

*kim? nə? hara? necə? neçə? neçənci? nə edir?*

**Ç** **Şəklə uyğun bir neçə açar söz yazın. Həmin sözlərin iştirakı ilə şəklə aid cümlələr qurun.**



# 4 TƏBİƏTİN SİRLƏRİ

**1 A** **Şəkillərə baxın və suallara cavab verin.**

- Sizcə, bu bölmədə nə haqda danışacağıq?
- Sirr dedikdə nə başa düşürsünüz?
- Təbiətin hansı sirləri ola bilər?
- Hansı şəkildəki təbiət hadisəsi sizin üçün sirdir?
- Təbiətin başqa hansı sirləri sizi maraqlandırır?



**B** **Mətni oxuyun. Rənglərin adlarını dəftərinizdə qeyd edin.**

## RƏNGLƏRİN SÖHBƏTİ



*– Rənglərin ən gözəli mənəm. Mən çəmənləri, ağacları, yarpaqları bəzəyirəm.*

*– Mən səmanın, dənizin rəngiyəm. İnsanlara sakitlik və rahatlıq verirəm.*





*– Mən bu dünyanı isidən Günəşin rəngiyəm. Günəş olmasa, soyuqdan hamınız donarsınız.*

*– Mən isə ətirli meyvələrin rəngiyəm. Unutmayın ki, portağal, naringi, yerkökünü sevdirən mənəm...*





– Niyə dava edirsiniz? Hər birinizin öz gözəlliyi var. Yaxşısı budur, mənimlə gəlin. Qırmızı, göy, bənövşəyi rənglər sizi gözləyir. Onlarla birlikdə göy üzünü bəzəyin.

*İradə İsmayılqızı*

**C** **Mətndə hansı təbiət hadisəsi ilə tanış oldunuz?**

**Ç** **Uyğunluğu müəyyən edin.**



| | | | |
|---|---|---|---|
| səmanın, dənizin rəngi | portağalın, yerkökünün rəngi | çəmənlərin, ağacların rəngi | Günəşin rəngi |

**D** **Sizcə, bu rənglər mübahisəyə qoşulsalar, nə deyərlər?**




**2 A** **Göyqurşağı görmüsünüzmü? Sizcə, o necə yaranır? Göyqurşağı haqqında aşağıdakı mətni oxuyun və bildiklərinizlə müqayisə edin.**

## GÖYQURŞAĞI NECƏ YARANIR?

Hava tutulur, göy üzünü qara buludlar alır. Şimşək çaxır, yağış yağmağa başlayır. Yağışdan sonra gün çıxır. Gün şüaları yağış damcılarının üzərinə düşür. Bu zaman günəşin şüası rənglərə ayrılır. Həmin rənglər səmada qövs şəklində düzülür və göyqurşağı yaranır.

Göyqurşağı daha çox yaz yağışından sonra görünür. Göyqurşağının yeddi rəngi var: qırmızı, narıncı, sarı, yaşıl, mavi, göy, bənövşəyi.



**Söz boğçası**

- səma
- qövs
- şimşək
- şüa

**B** **Şəkillərdən istifadə etməklə göyqurşağının yaranma ardıcıllığını müəyyən edin.**



**C** **Bu mətndə göyqurşağı ilə bağlı hansı yeni məlumatlara rast gəldiniz?**

**Ç** **Samitlərə uyğun saitlər artırmaqla tapmacaların açmasını tapın.**

| b l d | g n ş | y ğ ş |
|---|---|---|
| *Göydə gəzər qalaq-qalaq,*<br>*Gah tutqundur, gah rəngi ağ.* | *Aləmə işıq salır,*<br>*Axşam gül kimi solur.* | *Göy üzü damar-damar,*<br>*Göydən yerə nur damar.* |

**D** **İndi isə həmin sözləri uyğun gələn nöqtələrin yerinə yazmaqla cümlələri köçürün.**

*Yazda tez-tez .... yağır.*
*.... şüaları torpağı qızdırır.*
*Göy üzünü qara .... aldı.*

**E** **Nöqtələrin yerinə uyğun gələn sözləri seçib cümlələri oxuyun.**

*"Göy", "yaşıl", "qırmızı" sözləri ... bildirir. (ad / əlamət / hərəkət)*
*"İki", "az", "beşinci" sözləri ... bildirir. (ad / əlamət / say)*
*"Yağış", "bulud", "günəş" sözləri ... bildirir. (ad / əlamət / hərəkət)*
*"Guruldamaq", "yağmaq" sözləri ... bildirir. (ad / əlamət / hərəkət)*

**Ə** **Uyğunluğu müəyyən edin və yazın.**

| Hava | Günəş | Yağış | Şimşək |
|---|---|---|---|
| **çaxır** | **yağır** | **tutulur** | **çıxır** |

**3 A** **Şeirdə bitişik verilmiş sözləri müəyyən edərək oxuyun.**



*Mənəgecələrbaxın,*
*Səhərolduyatıram.*
*Günəşçıxanayaxın*
*Göyüzündəbatıram.*

- **Sözlər arasında boşluqlar buraxaraq şeir parçasını köçürün.**

• Bunları bilməliyik•

**Şeir və nağıl**

**Şeir**

Dərsə gedən bir uşaq
Çıxdı buz üstə qoçaq.
Sürüşdü birdən-birə,
Düşdü üz üstə yerə.

misralar

**Nağıl, hekayə**

Bir uşaq dərsə gedirdi. O, buzun üstünə çıxdı. Ayağı sürüşdü və yerə yıxıldı.

cümlələr

**B** **Əvvəlki bölmələrdə keçdiyiniz mətnləri xatırlayın. Hansı mətnlər şeir, hansılar hekayə şəklindədir?**

*Məktəbə get, dərs oxu!* səh. 51 | *Yarış* səh. 56

*Qartalın təşəkkürü* səh. 42 | *Təmizlik* səh. 60

*Ayı və dostları* səh. 54 | *Ağıllı Ömər* səh. 40

**C** **Aşağıdakı şeiri oxuyun, suallara cavab verin.**

Düşünürdüm, Ay nədən
Arıq olur çöp kimi.
Bir də gördüm, kökəlib,
Dönüb olub top kimi.

*Mina Rəşid*




- *Şeir parçasında neçə misra var?*
- *Hər misrada neçə heca var?*
- *Hansı şəkildə Ay şeirin 2-ci misrasındakı təsvirə uyğundur?*

**Ç** **Verilmiş şeir parçalarını öz sözlərinizlə nəql edin.**

Şaftalı ağacları
Çiçəkləyib çəhrayı.
Arılar bərk sevinir,
Bol olacaq balları.

*İbrahim Yusifoğlu*

Bir boz ayı balası
Çıxdı yaşıl təpəyə.
Gördü, bal arıları
Düzülübdür pətəyə.

*Zahid Xəlil*

Vızıldayıb çəmənləri
Gəzir bir-bir arılar.
Çiçəklərin qulağına
Nəğmə deyir arılar.

*Zahid Xəlil*

**4 A** Hansı səma cisimlərini görmüsünüz? Onlar haqqında bildiklərinizi danışın.

**B** Şeir və hekayə şəklində olan mətnlər arasındakı uyğunluğu müəyyənləşdirin.

• Sözlərin yazılışı •

| Doğru | Yanlış |
|---|---|
| təbiət | təbiyət |
| rəng | rənk |
| şimşək | şimşəy |
| bulud | bulut |

## RƏSSAM GÜNƏŞ

### Şeir

Rəssam günəş ertə durdu,
Təbiətə min rəng vurdu.

Fırçasını çəkdi dağa,
Göy dənizə, yaşıl bağa,
Gah soluna, gah sağına,
Uşaqların yanağına.

Günəş gözəl bir rəssamdır,
Hər tərəfə rəngi çatdı.

Elə ki gördü axşamdır,
Dağ dalına enib yatdı.

*Xanımana Əlibəyli*

### Nağıl

**A.** Günəş fırçasıyla dağı, dənizi, bağları, uşaqların yanağını boyayır.

**B.** Günəş axşamlar dağların arxasına keçib yuxuya gedir.

**C.** Günəş yuxudan oyanan kimi təbiəti rəngləməyə başlayır.

**Ç.** Günəş gözəl rəssamdır. Hər tərəfi boyamaq üçün rəngləri var.



**C** “Rəssam günəş” şeirinə çəkilmiş şəkildə hansı misralar təsvir olunub?

fəsil 2

# İLBİZ

**1 A Sözlərlə şəkilləri uyğunlaşdırın.**

| ilbiz | tırtıl | kəpənək | parabüzən |
| --- | --- | --- | --- |






**B Şəkildəki kitab cildinə baxın.**
**Sizcə, bu kitabda nə haqda danışılır?**




**C Mətni oxuyun. Mətnin hansı hissələri şəkillərdə təsvir olunub?**

Biri var idi, biri yox idi. Bir İlbiz var idi. İlbiz həmişə qəhvəyi çanağını belində daşıyırdı. Bu da onun heç xoşuna  gəlmirdi. Elə hey dostlarına şikayətlənirdi:

– Ah, çanağımı belimdə daşımaqdan yorulmuşam.  Bu nə çanaqdır?! Heç bəzəyi də yoxdur.

Günlərin bir günü Kəpənək dedi:

– Bilirsən, meşədə rəssam Tırtıl yaşayır. Gəl onun yanına gedək. O sənin çanağını istədiyin kimi rəngləyər.

İlbiz bu xəbərə sevindi. Birlikdə yola çıxdılar. Tırtılın evinə gəlib çatdılar. Tırtıl İlbizin çanağını rəngarəng naxışlarla bəzədi.

İlbiz al-əlvan çanağını bəyəndi.




**Ç Mətn və şəkillər əsasında suallara cavab verin.**

– *İlbizin yaxın dostları kimlərdir?*

– *İlbiz nədən şikayətlənirdi?*

– *Dostları İlbizə necə kömək etdilər?*

**• Söz boğçası •**
- çanaq
- naxış
- leysan

**D** **Bu heyvanlardan hansının çanağı var?**






**2 A** **Mətnin davamını oxuyun və suallara cavab verin.**

Dostlar geri qayıdırdılar. İlbiz çox yavaş hərəkət edirdi. Birdən güclü yağış yağmağa başladı. Leysan Kəpənək və Parabüzəni tamamilə islatdı. İlbiz isə sakitcə çanağına çəkilib yağışın kəsməyini gözlədi. Yağış kəsdikdən sonra İlbiz su içində büzüşmüş dostlarını gördü.

Öz-özünə düşündü:

– Yaxşı ki, məni qoruyan çanağım varmış.

*Asiyə Aslanər*



**B** **Mətnin sonuna hansı cümləni əlavə edərdiniz? Seçiminizi izah edin.**

*A) İlbiz çanağını dostlarına hədiyyə edir.*

*B) O gündən sonra İlbiz bir daha çanağından şikayətlənmədi.*

*C) Yağış çanağın rənglərini yuyub aparır.*

**C** **Şəkillərin ardıcıllığını müəyyənləşdirin və mətni nəql edin.**




**Ç** **Cümlələrin birinci və ikinci hissələrini uyğunlaşdırın.**

*1. İlbiz kədərli idi, çünki ...*
*2. İlbiz şikayətləndi, ona görə də ...*
*3. İlbiz yağışda islanmadı, çünki ...*
*4. İlbiz sevindi, ona görə ki ...*

onun çanağı var idi.
indi onun al-əlvan çanağı var idi.
çanağını daşımaqdan yorulmuşdu.
dostları onu tırtılın yanına apardılar.

**D** **Doğru, yoxsa yanlış?**

*1. İlbizin çanağı qırılmışdı.* ☺ ☹

*2. Dostları İlbizi Tırtılın yanına apardılar.* ☺ ☹

*3. Tırtılın yanına gedəndə güclü yağış yağdı.* ☺ ☹

*4. Rənglənmiş çanaq İlbizin xoşuna gəlmədi.* ☺ ☹

*5. İlbiz çanağına girib yağışdan qorundu.* ☺ ☹

*6. İlbiz başa düşdü ki, çanağın da faydası var.* ☺ ☹

**E** **Mətndəki obrazların adlarındakı hecaların sayını müəyyən edin.**

**Sonra isə həmin adları hecaların sayına görə şəkillərdəki heyvan adları ilə uyğunlaşdırın.**








**3 A** **“Sirli canlılar” kitabından ilbizlər haqqındakı mətni oxuyun. Sizin üçün yeni məlumatları dəftərinizdə qeyd edin.**

## İLBİZLƏR

İlbizlərin bədəni bərk çanaq içərisində yerləşir. Təhlükə olanda baş və ayaqlarını da çanağın içərisinə çəkirlər.

Onlar həm quruda, həm də suda yaşayırlar. Çox soyuq havada donurlar. Çox isti havada isə quruyurlar. İlbizin çanağı onları donmaqdan və qurumaqdan qoruyur.

İlbiz buynuzcuqları ilə həm görür, həm də qoxu hiss edir. İlbizlər daha çox ot ilə qidalanırlar. Bəzən ət də yeyirlər.



**B** **Mətndə ilbiz haqqında hansı məlumat verilmir?**

*A) İlbiz soyuq havada donur.*

*B) İlbiz həm otla, həm də ətlə qidalanır.*

*C) İlbiz 3 il qidalanmadan yata bilər.*

**C** **Hansı şəkil mətnin məzmununa uyğundur?**





**Ç** **Aşağıdakı məlumatlar hansı kitablarda verilib?**

*1. İlbizin çanağı onu istidən və soyuqdan qoruyur.*
*2. İlbiz baş və ayaqlarını da çanağın içinə çəkə bilir.*
*3. İlbizin çanağı qəhvəyi rəngdədir.*
*4. İlbiz isti havada quruyub məhv olur.*
*5. İlbizin buynuzcuqları var.*
*6. İlbiz çox yavaş hərəkət edir.*




**4 A** **Cümlədə göy rənglə verilmiş sözü hansı sözlə əvəz etmək olar?**

*İlbizin çanağı bərk olur.*

A) gözəl B) möhkəm C) uzun

**• Bunları bilməliyik •**

**Yaxınmənalı sözlər**



bəyənmək — xoşlamaq



rəngarəng — al-əlvan

**B** Yaxınmənalı sözləri uyğunlaşdırıb oxuyun.

| | |
|---|---|
| rəng | yoldaş |
| dost | qəşəng |
| gözəl | asta |
| yavaş | boya |

**• Sözlərin yazılışı •**

| Doğru | Yanlış |
|---|---|
| kəpənək | kəpənəy |
| parabüzən | parabizən |
| al-əlvan | aləlvan |
| çanaq | çanax |

**C** Cümlələrdə qırmızı rənglə verilmiş sözləri yaxınmənalı sözlərlə əvəz edərək köçürün.

*uca şir birdən böyük*

*Biz zooparkda aslan gördük.*
*Şirin iri gövdəsi və pəncələri var.*
*Onun qəfəsinin divarları hündür idi.*
*Şir qəfildən nərildədi.*

**Ç** Qruplarla iş

**Aşağıdakı cümlələri davam etdirərək nağıl qurun və danışın.**

**1.** Biri var idi, biri yox idi, bir fil var idi. Filin xortumu çox uzun idi. Hərəkət edərkən ona mane olurdu. ...

**2.** Bir gün ulaqla zebr rastlaşdılar. Ulaq zebrə dedi: “Sənin nə gözəl zolaqların var. Amma mən ...”

**3.** Bir gün dəvə öz-özünə düşündü: “Görəsən, niyə mənim belim əyridir?” ...

**4.** Bayquş yalnız gecələr yuvasından çıxırdı. Gündüzlər isə həsrətlə başqa quşların səsinə qulaq asıb düşünürdü: “Kaş mən də işıqda görə biləydim”. ...

# GÖBƏLƏK

**1 A** **Tapmacanın açması hansı şəkildə təsvir olunub?**

Meşədir, çəməndir oylağım mənim,
Özümdən yekədir papağım mənim.
Bəzən zəhərliyəm, bəzən yeməli,
Düz bircə dənədir ayağım mənim.



?
- *Tapmacadakı hansı məlumatlar cavabı tapmaqda sizə kömək etdi?*

**B** **Şeiri oxuyun və suallara cavab verin.**

## AĞ GÖBƏLƏK

Göbələk, ağ göbələk,
Ay ağpapaq göbələk!

Dağlarda qar əriyib
Qarışanda sellərə,
Çimib yaz yağışında
Səpələn bu çöllərə.

Kol dibində bitirsən,
Elə bil ki çətirsən.

Gizlənmə uşaqlardan,
Qoy hər an görək səni.
Səbətlərə doldurub
Evə gətirək səni.

*Zahid Xəlil*



**• Söz boğçası •**
- oylaq
- sel
- kol
- çətir
- səbət

**C** “Göbələk” şeirini tapmaca ilə müqayisə edin. Bu şeirdə hansı yeni məlumatlarla rastlaşdınız?

**Ç** Şair göbələyi nəyə bənzədir?





**D** Verilmiş sözləri cədvəl üzrə qruplaşdırın.

***yağış, papaq, çimmək, zəhərli, səbət, doldurmaq, ağ, gətirmək***

| ad bildirən sözlər | əlamət bildirən sözlər | hərəkət bildirən sözlər |
|---|---|---|
| | | |

**2 A** Misraların sonundakı hansı sözlər oxşar səslənir?

Dağlarda qar əriyib
Qarışanda sellərə,
Çimib yaz yağışında
Səpələn bu çöllərə.

**• Bunları bilməliyik •**

**Şeir, bənd, qafiyə**

**bəndlər**

Günəş doğdu, yayıldı,
Yatan ellər ayıldı.
Açdı çiçəkli güllər,
Dilə gəldi bülbüllər.

qafiyə

Qar, çovğun gözdən itdi,
Dağlarda lalə bitdi.
Qanadlandı buludlar,
Yerdəki əlvan otlar.

qafiyə

*Səməd Vurğun* — şair

**B** **Aşağıdakı şeir parçasını oxuyun və suallara cavab verin.**

## HARA GEDİRSƏN AXŞAM?

Meşəlikdə əsdi Şam,
Dedi körpə Cüyürə:
– Hara gedirsən axşam
Sən yüyürə-yüyürə?

Cüyürüm, öz vaxtı var
Meşədə əylənməyin.
Rastına düşmək olar
Burda Əyripəncənin.

*Xanımana Əlibəyli*

**?**

- *Şeirin müəllifi kimdir?*
- *Şeirdə neçə bənd var?*
- *Şeirdə neçə misra var?*
- *Hər misrada neçə heca var?*
- *Hansı misralar qafiyələnir?*

**C** **Qafiyələnən sözləri uyğunlaşdırın.**

| | |
|---|---|
| satdı | itdi |
| soldu | əkdi |
| yağdı | yoldu |
| qaçdı | batdı |
| bitdi | saçdı |
| çəkdi | sağdı |

**• Sözlərin yazılışı •**

| Doğru | Yanlış |
|---|---|
| göbələk | göbələy |
| dovşan | doşan |
| bənövşə | bənöşə |
| qanad | qanat |

**Ç** **Nöqtələrin yerinə uyğun sözlər artırmaqla şeir parçasını köçürün.**

*döşə, dişə, uçaram, açaram, qaçaram*

Bənövşəyəm, bənövşə,
Düşmüşəm dilə-...
Qızlar, oğlanlar məni
Dərib taxarlar... .

Bahar oldu ...,
Qar, borandan ...,
Başqa güllər açanda
Mən quş olub... .

**3 A** **“Göbələk” mətninə çəkilmiş şəkillərə baxın. Sizcə, necə olur ki, göbələk sürətlə böyüyür?**

## XEYİRXAH GÖBƏLƏK

Günlərin bir günü meşədə güclü yağış yağır. Heyvanlar gizlənməyə yer axtarırlar. Qarışqa balaca bir göbələk görüb onun altında gizlənir.



Bir az sonra yaxınlıqda qanadları islanmış Kəpənək görünür. Kəpənəyə yazığı gələn Qarışqa yanında ona da yer verir.



Aradan bir az keçmiş su içində büzüşmüş Sərçə onlara yaxınlaşır. Qarışqa onu da yanlarına çağırır.

Nəhayət, Dovşan da onlara qoşulur. Hamısı birlikdə yağış kəsənə kimi göbələyin altında gizlənir.





Bir azdan yağış kəsir. Göy üzündə Günəş görünür. Heyvanlar sevinclə göbələyin altından çıxırlar. Əvvəl kiçicik olan göbələk indi xeyli böyümüşdü... Onlar bunun necə baş verdiyini anlamırlar. Bəs siz necə? Bu sualın cavabını bilirsinizmi?

*Vladimir Suteyev*

**B** **Şəkildən istifadə etməklə suala cavab verin:**
**– Nə üçün heyvanlar yağışdan qorunmaq üçün göbələyi seçirlər?**



**C** **Nağılda hansı obrazın adı çəkilmir?**



**Ç** **Mətnə görə ardıcıllığı müəyyən edin.**

*a) Kəpənək, Qarışqa, Sərçə, Dovşan*
*b) Qarışqa, Sərçə, Dovşan, Kəpənək*
*c) Qarışqa, Kəpənək, Sərçə, Dovşan*

**D** **Şəklə əsasən “Xeyirxah göbələk” mətnini genişləndirin və nəql edin.**



**4 A** **Tapmacaları oxuyun. Tapmacalarla “Xeyirxah göbələk” mətnindəki obrazları uyğunlaşdırın.**

İşləmək olmuş peşəm,
Çünki mən zəhmətkeşəm.
Bütün yayı işlərəm,
Qış gələndə dişlərəm.

*

Şeşədir qulaqlarım,
Nazikdir ayaqlarım.
Qaçanda hoppanaram,
Kələmlə xoşdur aram.

Cik-cik çağrılır adım,
Balacadır qanadım.
Balama əl vursalar,
Göyə çıxar fəryadım.

*

Qonar gülə-çiçəyə,
Hər yarpağa, ləçəyə.
Qanadı xallı, zər-zər,
Məskənidir çəmənlər.

**• Söz boğçası •**

- zəhmətkeş
- şeşə
- hoppanmaq
- fəryad
- ləçək
- məskən

**B** **Əlamət bildirən sözləri aid olduğu sözlərlə uyğunlaşdırıb yazın.**

| | |
|---|---|
| balaca | qarışqa |
| xallı | dovşan |
| şeşəqulaq | sərçə |
| zəhmətkeş | kəpənək |

Nümunə:

*balaca sərçə*

**C** **Şəkillərin ardıcıllığını müəyyənləşdirib mətn qurun.**

a


b


c


ç


**Ç** **Hər bir sual cümləsinə uyğun olan nəqli cümləni seçin.**

*1. – Ana, olarmı biz göbələk yığmağa gedək?*
*2. – Ana, göbələkdən bizə nə bişirəcəksən?*
*3. – Bacı, yorulmusan?*
*4. – Asif, sən nə qədər göbələk yığmısan?*

Nümunə:
1 – b)

*a) – Mən artıq yoruldum, evə qayıtmaq istəyirəm.*
*b) – Olar. Amma çox uzaqlara getməyin.*
*c) – Nigar, artıq mənim səbətim dolub.*
*ç) – Mən sizə dadlı bir yemək bişirərəm.*

**D** **Aşağıdakı sözləri izahları ilə uyğunlaşdırın.**

| | |
|---|---|
| • *sel* | *Alçaq, ağacaoxşar bitkidir.* |
| • *kol* | *Günəşdən, yağışdan qoruyur.* |
| • *çətir* | *Yaşıl otla örtülmüş yerdir.* |
| • *çəmən* | *İçərisinə meyvə, tərəvəz yığılır.* |
| • *səbət* | *Güclü yağışdan sonra yaranır.* |

**E** **Aşağıdakı cümlələri “Göbələk” fəslində öyrəndiyiniz məlumatlara əsasən tamamlayın.**

- *Göbələk ... bitir.*
- *Göbələyin papağı ... bənzəyir.*
- *Bəzi göbələklər ..., bəziləri isə yeməli olur.*
- *Göbələklər ... çoxalır və sürətlə böyüyür.*

**Ə** **Sütunlardakı sözləri hecalarının sayına görə uyğunlaşdırın.**

| a | b | c | ç |
|---|---|---|---|
| kəpənək | bağ | dovşan | sərçə |
| cırcırama | qaranquş | qarışqa | kərtənkələ |
| meşə | ağacdələn | kol | qar |
| quş | səbət | parabüzən | bənövşə |

**F** **Şəkillərdən istifadə edərək cümlələri tamamlayın və oxuyun.**



*Yazda ağaclar ... açır. Göy üzündən ... boylanır. Dağlarda ... əriyir. Kol dibindən ... baş qaldırır. İsti ölkələrdən ... uçub gəlir.*

# BOZQULAQ

**1 A** **Şəkillər üzrə danışın. Bu şəkillər sizə hansı təbiət hadisəsindən xəbər verir?**









**B** **Mətni oxuyun. Obrazların adlarını dəftərinizdə qeyd edin.**

## BOZQULAĞIN BAHAR SEVİNCİ



Biri var idi, biri yox idi, bir dovşan var idi. Adı da Bozqulaq idi. Günlərin bir günü qaranquşların səsi onu yuxudan oyatdı. Bozqulaq burnunu qırışdırdı:

– Quşlara bax. Səs salırlar. Qoymurlar yatım. Axı mən yatmaq istəyirəm.

Anası ona cavab verdi:

– Dur, gözəl balam. Onlar adi quşlar deyil. Qaranquşlardır. Onlar gəliblərsə, deməli, bahar gəlib.

Bozqulaq qulaqlarına inanmadı:

– Bahar gəlib? Elə bircə gecədə? Onu qaranquşlar gətiriblər?

– Yox, Bozqulağım, bahar qaranquşları gətirib. O gəlib, havalar istiləşib, qaranquşlar da vətənə dönüblər.

Bozqulaq yuvadan bayıra atıldı.

– Ah, çiçəklərə bir bax! Günəş də çıxıb. Hər tərəf yaşıllaşıb...

Elə bu vaxt Şirincə adlı alma ağacı onu səslədi:

– Dost, hara gedirsən?

Bozqulaq dedi:

– Salam, Şirincə. Gedim, görüm Kirpi oyanıb? Düz üç aydır yatır...

Şirincə qolunu uzadıb çiçəklərindən birini dərdi:

– Al, bunu da dostuna apar.

Bozqulaq nəzakətlə:

– Sağ ol! – dedi.

Çiçəyi alıb dostunun görüşünə tələsdi.



**C** **Mətndəki obrazların adlarını ardıcıllıqla sadalayın.**









**Ç** **Cümlələri tamamlayın.**

*Bozqulaq yuxudan yarımçıq durdu, çünki ...*

*Bahar gəlmişdi, ona görə də ...*

*Şirincə Bozqulağa çiçək verdi ki, ...*

**D** **Mətnə görə şəkillərin ardıcıllığını müəyyən edin.**

a



b



c



ç



d



**E** **Doğru, yoxsa yanlış?**

*1. Mətndə hadisə yazın əvvəlində baş verir.*

*2. Bozqulaq anasının səsinə yuxudan oyandı.*

*3. Alma ağacı yayda çiçəkləyir.*

*4. Kirpi qış aylarında yatır.*

*5. Alma ağacı xeyirxah idi.*

**2 A** **Bozqulağın yay günləri haqqında mətni oxuyun. Mətndə obrazların sevdiyi qidaları qeyd edin.**

## BOZQULAĞIN YAY GÜNLƏRİ

Artıq yay gəlmişdi. Bozqulaq uzun yay günlərini maraqlı keçirirdi. Kirpi ilə oynayır, ayı üçün balıq tuturdu.



Bir gün Bozqulaq çəmənlikdə oynayırdı. Ətrafda rəngbərəng kəpənəklər uçurdu.

– Ah, bunlar necə də gözəldir! Bozqulaq kəpənəktutanı götürüb onların dalınca qaçdı.



– İstəyirəm sizi tutum. Mən sizi evimizdə saxlayacağam. Sizə yerkökü və kələm verəcəyəm. Elə dadlıdır ki...

Amma kəpənəklər sürətlə uçur, Bozqulağa gülürdülər. Birdən Şirincənin səsi eşidildi:



– Ey dost, bəsdir boş yerə qaçdın... Sənin yerkökün onlara lazım deyil. Onlar güllərin şirəsi ilə qidalanırlar. Yaxşısı budur, mən səni almalarıma qonaq edim.

Şirincə silkələndi və yerə çoxlu alma töküldü. Bozqulaq Şirincəyə təşəkkür etdi. Kəpənəktutanı almalarla doldurub sevinclə dostlarının yanına yüyürdü. Hamı dadlı almaya qonaq oldu...



**B** **Bozqulaq kəpənəkləri hansı tərəvəzlərə qonaq etmək istəyir? Səbəbini izah edin.**

**C** **Mətndə belə bir obraz yoxdur.**



**Ç** **Hadisələri mətnə uyğun olaraq sıralayın.**

- *Şirincə Bozqulağı almaya qonaq etdi.*
- *Bozqulaq kəpənəkləri qonaq etmək istəyir.*
- *Bozqulaq dostlarını almaya qonaq etdi.*
- *Bozqulaq dostları ilə yay günlərini maraqlı keçirirdi.*

**D** **Mətndəki məlumatlardan çıxış edərək cümlələri tamamlayın.**

- *Dovşan ... ilə qidalanır.*
- *Kəpənəklər ... ilə qidalanır.*
- *Ayı ... ilə qidalanır.*



**E** **Yay fəsli ilə əlaqədar xatırladığınız əhvalatı danışın.**

**3 A** **Söz cütlərini şəkil cütləri ilə uyğunlaşdırın.**

1) *gecə – gündüz*
2) *cəld – yavaş*
3) *yay – qış*
4) *gəlmək – getmək*












• Bunları bilməliyik •

## Əksmənalı sözlər



boş dolu



üstündə altında

**B** **Əksmənalı sözlərin uyğunluğunu müəyyən edin.**

| | |
|---|---|
| uzun | balaca |
| böyük | yuxarı |
| aşağı | qısa |

| | |
|---|---|
| geyinmək | susmaq |
| yazmaq | soyunmaq |
| danışmaq | pozmaq |

**C** **Çərçivələrdə verilmiş hər üç sözdən ikisi əksmənalıdır.**
**Həmin sözləri müəyyən edin.**
**Onların ad, əlamət, hərəkət, yoxsa say bildirdiyini deyin.**

| | | | |
|---|---|---|---|
| az | uzaq | kiçik | oturmaq |
| isti | arxa | dar | durmaq |
| çox | yaxın | geniş | gülmək |

**Ç** **Qırmızı rəngdə verilmiş sözləri əksmənalı sözlərlə əvəz edib yazın.**

*Havalar çox isti keçirdi.*

*Qışda meyvə-tərəvəz az olur.*

*Yayda hamı nazik geyinir.*

*Günlər uzanır, gecələr qısalırdı.*

4 A **Payız fəsli haqqında nə bilirsiniz? Mətni oxuyun və bildiklərinizi yeni məlumatlarla müqayisə edin.**

**• Söz boğçası •**
- sapsarı
- həyəcan
- kürk
- qayğı

## BOZQULAĞIN PAYIZ QAYĞILARI



Bozqulaq alma ağacının altında oturub tökülən sarı yarpaqları sayırdı.

– Bir, iki, üç, dörd, ... .Belə getsə, ağac tamam çılpaq qalacaq. Bozqulaq həyəcanla Şirincəyə dedi:

– Sən xəstələnmisən? Yarpaqların sapsarı olub tökülür.

Şirincə güldü:

– Ay səni, Bozqulaq! Mən sağlamam. Bu boyda dovşansan, bilmirsən ki, payız gəlib.

– Payız gəlib?

– Hə. Görmürsən, quşlar da uçub isti ölkələrə gedirlər.

– İsti ölkələrə gedirlər? Quşlara bir bax...

Bozqulaq bunu deyib evə qaçdı.



Evdə anasına dedi:

– Ana, ay ana, bir pəncərədən bax. Payız gəlib, quşlar uçub isti ölkələrə gedirlər. Gəl biz də çıxıb gedək. Yoxsa soyuqdan donarıq.

Anası güldü:

– Heç böyüməmisən. Quşlar payızda uçub gedir, baharda qayıdırlar. Dovşanlar isə qışda kürklərini dəyişib daha isti və qalın kürk geyinirlər. Ona görə də soyuqdan donmurlar.

B **Suallara cavab verin.**

- *Bozqulaq Şirincəyə nə dedi?*
- *Mətndəki hadisələr ilin hansı fəslində baş verir?*
- *Quşların köçməyi Bozqulağı niyə narahat etdi?*
- *Ana Bozqulağa necə cavab verdi?*
- *Dovşanlar niyə isti ölkələrə getmirlər?*

**C** **Aşağıdakı şəkillərə baxın və mətni davam etdirin.**



Bozqulaq evdən çıxıb uçan quşlara əl elədi və dedi...



Bozqulaq dostu Kirpinin yanına gəlib dedi...

**Ç** **Mətndə hansı rənglə verilmiş sözlər:**

*a) ad bildirir*

*b) əlamət bildirir*

*c) hərəkət bildirir*

*ç) say bildirir*

**D** **Cümlələrə uyğun hərəkət bildirən sözlər artırın.**

**Payızda**

- ağacların yarpaqları ... .
- havalar yavaş-yavaş ... .
- soyuq külək ... .
- tez-tez yağış ... .

**E** **Cədvəldəki boş xanalara uyğun gələn sözləri müəyyən edin.**

durmaq  getmək  qaynar

| Sözlər | Yaxınmənalı | Əksmənalı |
|---|---|---|
| oturmaq | əyləşmək | |
| isti | | soyuq |
| qayıtmaq | dönmək | |

**5** **A** **Qış vaxtı qar yağarkən ən sevimli məşğuliyyətiniz nə olur?**

• Söz boğçası •
- ağappaq
- kədərli
- qəmgin

**B** **Mətni oxuyun. Şəkillərin aid olduğu cümlələri müəyyən edin.**

## BOZQULAĞIN YENİ DOSTU



Bozqulaq çox kədərli idi. Burnunu pəncərənin şüşəsinə söykəmişdi. Bu zaman pəncərəyə ağappaq qar dənəsi qondu. Bozqulaqdan soruşdu:

– Sən niyə qəmginsən?

Bozqulaq cavab verdi:

– Şirincə soyuqdan büzüşüb. Ayı, Kirpi yatıb. İndi mən kiminlə oynayım?

– Eybi yox. Biz sənə kömək edərik.

– Siz?

– Hə, mən və başqa qar dənələri. Çıx bayıra. Gəl bizdən özünə "dost" düzəlt. Adını da qoy Qaradamı.



Bozqulaq sevindi və özünü bayıra atdı. O, qar dənələrinin arasında ora-bura qaçır, onları yumrulayıb üst-üstə qoyurdu. Bir azdan Qaradamı hazır idi.

– Salam, dost, – Bozqulaq dedi.

– Salam. Çox sağ ol. Məni düzəltdin. Amma elə bil nə isə çatışmır.

Bozqulaq indi başa düşdü ki, Qaradamına burun qoymayıb. Tez evə qaçdı. Yekə bir yerkökü gətirib dostuna bağışladı. Onlar çox xoşbəxt idilər.

*Sevinc Nuruqızı*

**C** **Cümlələri tamamlayın və oxuyun.**

- *Bozqulaq kədərli idi, çünki...*
- *... Bozqulağa öz köməyini təklif etdi.*
- *Bozqulaq ... düzəltdi.*
- *Bozqulaq Qaradamına ... bağışladı.*

**Ç** **Şəkillərin ardıcıllığını müəyyənləşdirin və mətni nəql edin.**




**D** **Alma ağacının təsvirlərini oxuduğunuz mətnlərin adları ilə uyğunlaşdırın.**

| | | | |
|---|---|---|---|
| Bozqulağın yeni dostu | Bozqulağın payız qayğıları | Bozqulağın yay günləri | Bozqulağın bahar sevinci |




**E** **Cümlələrin ilin hansı fəsillərinə aid olduğunu müəyyən edin.**

*1. Yarpaqlar saralır.*
*2. Ağaclar çiçək açır.*
*3. Adamlar dənizdə çimirlər.*
*4. Qar yağır.*
*5. Quşlar isti ölkələrə uçub gedirlər.*

**Ə** **"Ən çox sevdiyim fəsil" mövzusunda fikirlərinizi yazın. Aşağıdakı suallardan istifadə edin.**

*1. İlin hansı fəsilləri var?*
*2. Mən hansı fəsli daha çox sevirəm?*
*3. Sevdiyim fəslin hansı əlamətləri var?*
*4. Nəyə görə bu fəsli daha çox sevirəm?*

# Ümumiləşdirici təkrar

**6 A** **“Təbiətin sirləri” bölməsində hansı təbiət hadisələri ilə tanış oldunuz? Hansı təbiət hadisəsi daha çox xoşunuza gəldi? Nə üçün? Daha hansı təbiət hadisələri haqqında məlumat almaq istəyirsiniz?**

**B** **Şeiri oxuyun, suallara cavab verin.**

Qara bax, qara,
Gör necə yağır.
Çıxsan bayıra,
Məni də çağır.

Qalın geyinək,
Həyatə çıxaq.
Qartopu yığaq,
Top-top oynayaq.

*Mirmehdi Seyidzadə*

- Şeirin müəllifi kimdir?
- Şeirdə neçə bənd var?
- Şeirdə neçə misra var?
- Hər misrada neçə heca var?
- Hansı misralar qafiyələnir?



**C** **Nöqtələrin yerinə uyğun gələn sözləri seçin və cümlələri tamamlayın.**

| | |
|---|---|
| Birdən ... çaxdı.<br>Güclü ... başladı.<br>Bağları ... basdı. | sel<br>şimşək<br>leysan |
| ... dibində çoxlu göbələk var idi.<br>Onlar ... kimi görünürdü.<br>Biz bir ... göbələk yığdıq. | səbət<br>kol<br>çətir |
| Yağan qar pəncərəyə ... vururdu.<br>Hər tərəf ... olmuşdu.<br>Dovşan qalın ... geyinmişdi. | kürk<br>naxış<br>ağappaq |

*Qeyd: Dərslikdə verilmiş mətnlər dil və məzmun baxımından müvafiq yaş qrupuna uyğunlaşdırılmışdır.*
*Müəllifi göstərilməyən mətnlər dərslik müəllifləri tərəfindən yazılmışdır.*

*BURAXILIŞ MƏLUMATI*

*Ümumi təhsil müəssisələrinin 1-ci sinifləri üçün*
*Azərbaycan dili (tədris dili) fənni üzrə*
***dərslik***
*(1-ci hissə)*


**Tərtibçi heyət:**

Müəlliflər **Ülkər Nurullayeva**
**Nuriyə Allahverdiyeva**
**İradə Bayramova**
**Aysel Xanalıyeva**

**Layihə rəhbəri** **Rafiq İsmayılov**

İxtisas redaktoru **Şəhla Zahidova**
Dil redaktoru **Dilrüba Cəfərova**
Bədii redaktor **Taleh Məlikov**
Texniki redaktor **Zeynal İsayev**
Dizayner **Taleh Məlikov**
Rəssamlar **Məzahir Hüseynov, Elmir Məmmədov**
Korrektor **Aqşin Məsimov**



**© Azərbaycan Respublikası Təhsil Nazirliyi (qrif nömrəsi: 2020-001)**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.



ISBN 978-9952-8386-0-2

Hesab-nəşriyyat həcmi 10,8. Fiziki çap vərəqi 12.
Səhifə sayı 96. Kağız formatı 57 × 90 1/8.
Şriftin adı və ölçüsü: Calibri, 16 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş __. Tiraj: 14 9100Pulsuz. Bakı – 2023.

Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 15.05.2020

Çap məhsulunu hazırlayan:
Azərbaycan Respublikasının Təhsil İnstitutu (Bakı ş. A.Cəlilov küç., 86).

Çap məhsulunu istehsal edən:
"CN Poliqraf" MMC (Bakı ş., A.M.Şərifzadə küç., 29/31).

Pulsuz